RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 76 (8955) CÜMƏ AXŞAMI, 14 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Rauf Hacıyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci ilin may ayında görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti Rauf Soltan oğlu Hacıyevin anadan olmasının 100 illiyi tamam olur.

Rauf Hacıyev rəngarəng yaradıcılıq palitrasına malik sənətkar kimi Azərbaycanın musiqi mədəniyyəti tarixində özünəməxsus yer tutur. Müxtəlif janrlarda çox sayda qiymətli əsərlər, o cümlədən simfoniya, oratoriya və kantatalar meydana gətirən bəstəkara uğurlu səhnə təcəssümü tapmış operettaları xüsusilə geniş şöhrət qazandırmışdır. Rauf Hacıyevin milli motivlərlə müasir üslubun vəhdətində yaratdığı vətənpərvər ruhlu lirik mahnılar məşhur ifaçıların repertuarına daxil olmuş və Azərbaycan mahnı janrının inkişafında əhəmiyyətli rol oynamışdır. Onun sənətinin yüksək bədii keyfiyyətləri həmçinin kinofilmlər və teatr tamaşaları üçün bəstələdiyi musiqi lövhələrində aydın təzahürünü tapmışdır. Rauf Hacıyev respublikanın mədəni həyatında yaxından iştirak etmiş və səmərəli ictimai fəaliyyəti ilə tanınmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və görkəmli bəstəkar Rauf Hacıyevin Azərbaycanda musiqi mədəniyyətinin inkişafında təqdirəlayiq xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq artisti Rauf Hacıyevin 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 aprel 2022-ci il*



# İlham Əliyevin beş prinsipini Ermənistan qəbul edir

## Azərbaycan Prezidentinin sülh sazişinin bağlanması üçün irəli sürdüyü təkliflər hər iki xalqın istəklərini əks etdirir

**"Postmünaqişə dövründə dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər... Eyni zamanda Avropa İttifaqı ilə bizim təmaslarımız müharibədən sonra daha intensiv xarakter almışdır. Avropa İttifaqı da postmünaqişə dövrünün reallıqlarını qəbul etmişdir".**

→ 4

## Sənaye məhsulları istehsalı 3,9 faiz artmışdır

**Ölkə üzrə cari ilin yanvar-mart aylarında 20,6 milyard manatlıq və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz çox sənaye məhsulları istehsal edilmişdir.**

→ 6

## Əsas kapitala 2,4 milyard manatdan çox vəsait yönəldilmişdir

**Bu ilin yanvar-mart aylarında əsas kapitala 2 milyard 440,7 milyon manat məbləğində, yaxud 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz az vəsait yönəldilmişdir.**

→ 6

## İqtisadi sektorda 1,6 milyon nəfər çalışır

**Dövlət Statistika Komitəsinin açıqlamasına görə, 2022-ci il martın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 3,6 min nəfər və ya 0,2 faiz artaraq 1 milyon 682,1 min nəfər olmuşdur.**

→ 6

## Birinci rübdə 368 layihə maliyyələşdirilib

**Sahibkarlığın İnkişafı Fondu ümumilikdə 46 müvəkkil kredit təşkilatı ilə əməkdaşlıq edir. AZƏRTAC fonda istinadla xəbər verir ki, güzəştli kredit mexanizmi çərçivəsində 2022-ci ilin yanvar-mart ayları üzrə 368 layihənin maliyyələşdirilməsi həyata keçirilib.**

→ 3

## Süni qiymət artımına imkan verilməyəcək

### Azərbaycan dövləti öz vətəndaşlarını qorumaq üçün lazım olan bütün addımları atır

Bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə toxunulan məsələlərdən biri də qiymət artımı ilə bağlı oldu.

Məlum olduğu kimi, qiymət artımı hazırda qlobal miqyas daşıyır və Prezident İlham Əliyevin də vurğuladığı kimi, dünyada ərzaq məhsullarının qiymətləri kəskin artır. Rusiya ilə Ukrayna arasındakı müharibə isə bu prosesi daha da sürətləndirib.

#### Ehtiyatlar artırılır, daxili təminat gücləndirilir

İndiki halda qiymət artımı dünyada baş verən proseslərdən qaynaqlanır və o cümlədən inflyasiya da bundan irəli gəlir. Dünyada ərzaq qiymətlərinin artması əksər ölkələrdə, o cümlədən Azərbaycanın əsas ticarət tərəfdaşlarında da inflyasiya təzyiqləri yüksəlmişdir. Dünya Bankının əmtəə bazarlarına dair məlumatlarına əsasən, 2021-ci ildə əvvəlki illə müqayisədə qeyri-enerji qiymətləri 20 faizdən çox artıb. BMT FAO təşkilatının məlumatına görə, dünyada ərzaq qiymətləri 23 faizdən çox artıb və son 10 ilin ən yüksək səviyyəsinə çatıb.

Qlobal miqyasda ərzaq və digər məhsulların qiymətinin artması isə təbii ki, ölkələrin daxili qiymətlərinə də təsir edir. Bu baxımdan hazırda Azərbaycan hökumətinin də qarşısında mühüm vəzifələr dayanır. Əsas vəzifələrdən biri təbii ki, respublikamızın strateji kənd təsərrüfatı məhsulu olan taxılla təminatdır. "Hökumətə bu məsələ ilə bağlı göstəriş verilmişdir. Operativ tədbirlər görülüb və ehtiyatlar yığılır. Biz daha çox ehtiyat yığmalıyıq. Ancaq eyni zamanda bilməliyik ki, belə vəziyyət uzun müddət ərzində davam edə bilər və yəqin ki, davam edəcək. Ona görə burada ilk növbədə daxili təminatımız artmalıdır", - deyə Prezident İlham Əliyev müşavirədə bu barədə bildirib.

→ 4

## "Şuşa ili"nə parlament töhfəsi

Şuşa...
Qədim və əsrarəngiz şəhər...
Dağların qoynunda, sıldırımlar üzərində inşa edilmiş qızılbürclü qəsr...
Qəhrəmanlığın, zəfərin, qürurun rəmz qalası...

Bu qədim və əfsanəvi Azərbaycan şəhəri hər zaman yağılar üçün alınmaz qala, keçilməz sədd olub. Elə buna görədir ki, şəhərə sahibləndiklərini zənn edən erməni işğalçıları da Şuşanı "qələbə"lərinin rəmzi sayaraq işğalda saxladıqları 28 il ərzində orada möhkəmlənməyə, bu şəhərə yiyələnməyə çalışıblar. Erməni mənfurlarının saxta parlament yaratmaq və Şuşada parlament binası tikmək kimi gülünc və quduz iştahaları da elə bu məkrli hisslərindən qaynaqlanıb. Amma 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan parlaq Zəfər sayəsində saxta erməni parlamenti də, onun qondarma binası da cəhənnəmə vasil oldu.

İndi azad Şuşada üçrəngli Azərbaycan bayrağı dalğalanır. Qarabağımızın büllur sarayı dirçəlir, tarixi əzəmətinə qovuşur. Şuşada gerçəkləşən mühüm tarixi və düşmənə böyük zərbə olan hadisələrdən biri isə ölkəmizin ali qanunverici orqanı - Milli Məclisin komitə iclasının ilk dəfə mədəniyyət paytaxtımızda keçirilməsi oldu...

#### Şuşa hər bir azərbaycanlını özünə çəkir

"Şuşa hər birimizi özünə çəkir. Düzdür, mən burada - Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim. O tədbirlər ki, Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olduğunu bir daha təsdiqləyir. Amma eyni zamanda hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada - Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm".

→ 5




## Genofondu məhv edən qidalar

### Geni motifikasiya olunmuş məhsullar yeni və daha təhlükəli xəstəliklər yaradır



→ 5

## Özünüməşğulluq özünə geniş yer alır



→ 6

## COVID-19-un yoluxuculuq riski hələ də qalır

→ 7

## Hindistan Asiyada yeni güc mərkəzinə çevrilir

→ 8

## Revanşistlərin ümidləri də puç olur

→ 7

## Taxıl idxalını azaltmaq üçün ilk növbədə ərzaqlıq buğdanın istehsalı artırılmalıdır



→ 6

## Q.O.Qurbanovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan futbolunun inkişafında xidmətlərinə görə Qurban Osman oğlu Qurbanov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 aprel 2022-ci il*

## T.T.Kazımovun Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

Taleh Tahir oğlu Kazımov Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 aprel 2022-ci il*

# Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiya onlayn iclas keçirib

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın 26 noyabr 2021-ci il tarixli, 26 nömrəli protokoluna əsasən təsdiq edilmiş tədbirlər planının 1-ci bəndinə müvafiq olaraq yerli komissiyaların potensialının artırılması istiqamətində təkliflərin müzakirəsi ilə bağlı geniş tərkibdə onlayn iclas keçirilib.










Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın sədri Əli Əhmədov giriş nitqi ilə çıxış edərək Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsinin müasir dünyanın aktual problemləri içərisində əhəmiyyətli yer tutduğunu qeyd edib: "Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən Azərbaycanda uşaq hüquqlarının qorunmasını nəzərdə tutan geniş konsepsiya hazırlanmışdır. Bu gün də cənab Prezident İlham Əliyev həmin konsepsiyanın ardıcıl surətdə həyata keçirilməsini öz siyasətinin əsas məqsədlərindən biri hesab edir".

Azərbaycan dövlətinin uşaqların hüquqlarının qorunması məsələsi ilə əlaqədar səlahiyyətli qurumlar içərisində Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya, o cümlədən yerli komissiyaların mühüm vəzifə daşıdığını qeyd edən Ə.Əhmədov komissiyanın ayrı-ayrı dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsindəki vacib rolunu qeyd edib.

Müasir dünyada, ümumən, insan hüquqlarının, o cümlədən onun tərkib hissəsi olan uşaq hüquqlarının qorunması ilə əlaqədar keyfiyyət dəyişikliklərinin baş verdiyini bildirən komissiya sədri qeyd edib ki, bu gün valideynlər daha aydın şəkildə qəbul edirlər ki, uşaqlara olan qayğı onların daha sağlam böyüməsi, təhsil alması, yaxşı qidalanması, onlara qarşı hər hansı bir zorakılığın tətbiq edilməməsi, uşaq əməyinin istismar edilməməsi kimi parametrləri özündə ehtiva edir.

Dövlət Komitəsinin sədri Bahar Muradova uşaqların müdafiəsinin həyata keçirilməsi, uşaq hüquqlarının təmin olunması üzrə mühüm müzakirələrin aparılması, fəaliyyət istiqamətləri ilə bağlı mövcud vəziyyətin öyrənilməsi və qarşıya çıxan çətinliklərin aradan qaldırılması baxımından geniş tərkibdə keçirilən görüşün əhəmiyyətini vurğulayıb.

Sosial-iqtisadi inkişafın nəticəsi olaraq ailədaxili münasibətlərdə bir sıra müasir dəyişikliklərin və transformasiyaların yarandığını və bunun da qarşıya müəyyən çətinliklərin çıxardığını qeyd edən komitə sədri bildirib ki, müasir informasiya-kommunikasiya texnologiyalarının inkişafı, bu sahədə yaranan problemlərin uşaqlara təsiri bu prosesi daha da intensivləşdirir və cəmiyyətin ənənəvi yanaşmalarının əksməqamlarını da meydana çıxarır. Nəticədə uşaqlar nəzarətsiz qalır, onların təhlükəli informasiyalara çıxışları asanlaşır, vətənpərvər ruhda, milli-mənəvi dəyərlərinə sadiq, müasirliyə açıq bir şəxsiyyətin yetişdirilməsi məsələsi sual altında qalır.

B. Muradova qeyd edib ki, gündəlik işimizdə rastlaşdığımız uşaq baxımsızlığı nəticəsində bəzi hallarda özünəqəsd, erkən nikah hadisələri baş verir, cinsi zorakılıq, uşaq oğurluğu və digər problemlər yaranır: "Bu isə əlaqələndirilmiş bir fəaliyyət tələb edir. Azərbaycanda yeridilən siyasət də buna uyğundur. Hazırkı vəziyyətdə uşaq hüquqlarını təmin və müdafiə edən 6 mərkəzi icra hakimiyyəti qurumu, 2 publik hüquqi şəxs və bütün rayon və şəhərlərin qəyyumluq və himayə orqanları bu məsələ ilə məşğuldur. Odur ki, adıçəkilən bu qurumlardan kifayət qədər həssaslıq, çeviklik və tədbirli olmaq tələb olunur".

O, qanunların müasir standartlara uyğunlaşdırılması, ixtisaslı kadrların yetişdirilməsinə xüsusi diqqətin artırılması və keyfiyyətli nəticə ortaya qoymaq üçün uyğun maddi-texniki bazanın formalaşdırılmasının vacibliyini vurğulayıb. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"na diqqət çəkən komitə sədri bildirib ki, bu sənəd qurumlar üzərinə müəyyən öhdəliklər qoydu. Ən ciddi məsələlərdən biri kimi beynəlxalq hesabatlarda vurğulanan yerli institusional mexanizmlərin effektivliyinin artırılması məsələsini vurğulayan B. Muradova bu istiqamətdə forma və məzmun dəyişikliyinə ehtiyac olduğunu qeyd edib.

Azərbaycanda gedən inkişaf dinamikası və geniş islahatlara uyğun olaraq çevik reaksiya vermək imkanlarının əldə edilməsinin əhəmiyyət kəsb etdiyini bildirən komitə sədri deyib ki, həm qanunvericilikdə nəzərdə tutulan öhdəliklər, həm də yerli komissiyaların əsasnamələri ətraflı şəkildə yerinə yetirilsə, bir çox problemlərin qarşısı da vaxtında alına bilər. O bildirib ki, regionlarda uşaq hüquqları üzrə mütəxəssislərin azlığı, komissiyaların uşaq hüquqları ilə bağlı məsələlərə baxılmasına cavabdeh olması ilə bağlı kifayət qədər məlumata malik olmaması, baxımsız və sosial təhlükəli vəziyyətdə olan uşaqlar və onların ailələri ilə profilaktik işin qanunvericiliyin tələblərinə uyğun qurulmaması bir sıra çətinliklərin yaranmasına gətirib çıxarır.

Nazirlər Kabinetinin təsdiq etdiyi siyahıya uyğun olaraq uşaq müəssisələrinin monitorinqinin həyata keçirildiyini diqqətə çatdıran B. Muradova son vaxtlar keçirilmiş monitorinqlərin nöqsanları və problemləri ortaya çıxardığını qeyd edib və əlavə edib ki, qarşıdakı dövrdə bu məsələlər əlaqəli şəkildə öz həllini tapmalıdır. Eyni zamanda komissiyaların imkanlarının artırılması istiqamətində bütövlükdə ölkə miqyasında vəziyyətin öyrənilərək təhlilin aparılması və nəticələrinə uyğun tədbirlərin planlaşdırılması, həmçinin birgə işin sistemli qurulması gələcəkdə ciddi nailiyyətlərin əldə edilməsinə səbəb ola bilər.

O, çıxışının sonunda mövcud vəziyyətdə inkişaf imkanlarını tapmaq, səyləri əlaqələndirmək, mövqeləri birləşdirmək, müsbət təcrübədən çıxış edərək yaxşı nəticələrə nail olmaq və gələcəyimizin təminatı olan uşaqların rahat, sərbəst, azad və təhlükəsiz şəraitdə yaşamasını təmin etmək əsas məqsədimiz olduğunu vurğulayıb.

Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova "Çətin həyat şəraitində olan uşaqların hüquqlarının müdafiəsi sahəsində Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların rolu" mövzusunda təqdimatla çıxış edərək yerlərdə uşaqların müdafiəsi ilə bağlı yanaşmalardan, yerli komissiyaların ilkin müdafiə tədbirlərindən, uşaq hüquqlarının müdafiəsi sahəsindəki problemlərdən danışıb, həmçinin onların həlli istiqamətində Dövlət Komitəsinin təkliflərini səsləndirib.

Sonra Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov çıxış edərək yetkinlik yaşına çatmayanların baxımsızlığının profilaktikası üzrə tədbirlərin icrasının mütəmadi davam etdirildiyini, həmin şəxslərin tərbiyəsi, saxlanması üzrə öz vəzifələrini yerinə yetirməyən valideynlər barəsində yerli komissiyalar, polis inspektorları və digər qurumlardan nümayəndələr cəlb edilməklə fərdi profilaktik işlər təşkil olunduğunu bildirib.

A.Kərimov qeyd edib ki, qeyri-dövlət uşaq sığınacaqlarında saxlanılan uşaqların qeydiyyatı zamanı bir çox hallarda onların sənədlərinin natamam olması onların müvafiq sosial ödənişlərin və digər dəstək tədbirlərinin edilməsinə, müxtəlif sosial təminat hüquqlarının həyata keçirilməsinə ciddi mane olur. O bildirib ki, bu kimi halların aradan qaldırılması üçün nazirlik tərəfindən səyyar xidmətlər göstərilir.

Daxili işlər nazirinin müavini Oruc Zalov yetkinlik yaşına çatmayanların sağlamlığına və mənəviyyatına təhlükə törədə biləcək fəaliyyətə cəlb olunması hüquqlarının və mənafelərinin pozulması hallarının cəmiyyətin və dövlətin narahatlığını doğuran aktual problemlərdən olduğunu bildirib. O, belə bir geniş müşavirənin keçirilməsini dövlət qurumları ilə komissiya üzvləri arasında işin keyfiyyətinin artırılması, yeni, effektiv fəaliyyət mexanizmlərinin qurulması baxımından yüksək qiymətləndirib.

Nazir müavini azyaşlılarla bağlı baş vermiş hər hansı xoşagəlməz hadisənin vaxtında qarşısının alınması və onların normal həyata qaytarılması üçün komissiya üzvü olan dövlət qurumları ilə yanaşı, cəmiyyətin hər bir üzvünün bu vacib işə cəlb edilməsinin mühümlüyünü vurğulayıb.

Sonra təhsil nazirinin müavini Firudin Qurbanov uşaq və gənclərin müasir dövrdə necə formalaşmasının ölkənin gələcək inkişafını müəyyən etdiyini qeyd edərək, Dövlət Komitəsinin təşəbbüsü ilə keçirilən və olduqca aktual bir məsələyə həsr olunan iclasın bu mənada böyük əhəmiyyət daşıdığını vurğulayıb. Müvafiq komissiyaların fəaliyyətini nəzərdən keçirərkən nazir müavini onların gələcək işinin təkmilləşdirilməsi, sosial risk qrupuna daxil olan uşaqların hüquqlarının müdafiəsi ilə bağlı fəaliyyət göstərən hər iki komissiya arasında daha dəqiq iş bölgüsünün aparılması, eyni zamanda uşaqların bilik və bacarıqlarının artırılması məqsədilə alternativ mərkəzlərin yaradılması ilə bağlı təkliflər səsləndirib.

Səhiyyə nazirinin müavini İlqar Qasımov atılmış, imtina olunmuş uşaqların sənədlərinin qaydasına salınması, komissiyanın fəaliyyətinin genişləndirilməsi və uşaqların onlara əlçatanlığının təmin edilməsi, həmçinin komissiyaların yanında qayğı mərkəzlərinin yaradılması məsələləri ilə bağlı bir sıra təkliflər irəli sürüb.

Bakı Şəhər İcra Hakimiyyətinin İctimai-siyasi, humanitar məsələlər və dini qurumlarla iş şöbəsinin müdiri Elmin İmanov çıxış edərək bildirib ki, Bakı Şəhər İcra Hakimiyyəti rayon icra hakimiyyətləri ilə birlikdə koordinasiyalı şəkildə fəaliyyət göstərir. E.İmanov komissiyaların üzvlərinin təlimatlandırılması ilə bağlı seminarların keçirilməsi, onlar arasında məlumat mübadiləsi məqsədilə davamlı şəkildə görüşlərin təşkil edilməsi, komissiyalarla kütləvi informasiya vasitələri arasında işin daha səmərəli qurulması və digər təklifləri diqqətə çatdırıb.

"Regional İnkişaf" İctimai Birliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Leyla Tağıyeva çıxış edərək RİİB-in uşaq hüquqlarının təşviqi və təmin olunması, eləcə də əlliliyi olan şəxslərin hüquqlarının və inklüziv dəyərlərin təbliği, o cümlədən uşaqların inklüziv təhsil imkanlarının genişləndirilməsi, eyni zamanda erkən uşaqlıq dövründə inkişaf istiqamətində həyata keçirdiyi bir sıra layihələr barədə bəhs edib.

O, ailənin rifahına və cəmiyyətin inkişafına maneə olan mənfi halların aradan qaldırılması istiqamətində ardıcıl yanaşmanın tətbiqinin vacibliyini vurğulayaraq, bir-biri ilə qarşılıqlı əlaqəli olan bir sıra müdaxilələri, o cümlədən normativ çərçivələrin təkmilləşdirilməsi, bilik bazasının və cəmiyyətin bu məsələyə həssaslığının artırılması, eyni zamanda bütün aidiyyəti tərəflərin fəal iştirakını tələb etdiyini qeyd edib.

İclas Bakı şəhəri Sabunçu rayonunun, Xocalı, Qazax, Gədəbəy, Biləsuvar rayonlarının komissiya sədrlərinin mövzu ətrafında çıxışları və təklifləri ilə davam edib.

# YAP Mərkəzi Aparatında "II Qarabağ müharibəsi və beynəlxalq humanitar hüquq" mövzusunda tədbir olub



Aprelin 13-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının və Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "II Qarabağ müharibəsi və beynəlxalq humanitar hüquq" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, Ermənistan ölkəmizə və xalqımıza qarşı beynəlxalq cinayətlər törədib. Bu cinayətlər cəzasız qalmamalı, beynəlxalq birlik bu məsələdə ədalətli mövqe nümayiş etdirməlidir.

Tədbirdə Milli Məclisin deputatı, hüquq elmləri doktoru Nizami Səfərov mövzu ilə əlaqədar məruzə ilə çıxış edib. O bildirib ki, işğalçılığı dövlət siyasətinin əsas prioritetinə çevirən, Azərbaycan xalqına qarşı müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər, etnik təmizləmələr törədən Ermənistan nümayişkaranə şəkildə beynəlxalq humanitar hüquq normalarını kobud formada pozub. Qeyd edilib ki, beynəlxalq humanitar hüquq müvafiq beynəlxalq konvensiyalarla tənzimlənir, burada Cenevrə konvensiyaları önəmli rol oynayır. Həmin sənədlərə əsasən ölkələrin silahlı münaqişələr dövründə üzərilərinə götürdükləri öhdəliklər var. Müharibələr zamanı tərəflər mülki əhali və mülki obyektlər ilə legitim hərbi hədəfləri fərqləndirməlidir. Amma Ermənistan bu öhdəliklərə əməl etməyib. Belə ki, 30 ilə yaxın işğalçılıq siyasəti dövründə, o cümlədən İkinci Qarabağ müharibəsində Ermənistan çoxsaylı müharibə cinayətləri törədib.

"Ermənilər müharibə dövründə qadağan olunmuş silahlardan istifadə edib, əsir və girovlara qeyri-insani münasibət göstərib, 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində yaşayış məntəqələrini, tarixi, dini, mədəni abidələri, qəbiristanlıqları, bütün infrastrukturu məhv ediblər. Bu cür hərəkətlər beynəlxalq humanitar hüququn ciddi pozuntusu olaraq müharibə cinayətləri kimi qiymətləndirilir. Erməni silahlı qüvvələri beynəlxalq hüququn imperativ normalarını pozaraq bəşəriyyət tarixində nadir hallarda rast gəlinən cinayətlər törədiblər. Bu cinayətlər sırasında Xocalı soyqırımı xüsusi olaraq qeyd edilməlidir. 1992-ci il fevralın 26-da Xocalı şəhəri Ermənistan tərəfindən tam mühasirəyə alınaraq, yerlə-yeksan edilib, dinc əhali xüsusi qəddarlıqla kütləvi şəkildə qətlə yetirilib", - deyən N.Səfərovun sözlərinə görə, dövlətimiz bu cinayətlərin cəzasız qalmaması üçün müvafiq addımlar atır.

Deputat təəssüflə qeyd edib ki, beynəlxalq cinayətlərə görə məsuliyyətin həyata keçirilməsində də qlobal səviyyədə ikili standartlar hökm sürür və bunun nəticəsində Azərbaycan ərazisində soyqırımı, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər törətmiş canilərin bəziləri hələ ki məsuliyyətdən boyun qaçırmağa müvəffəq olurlar.

Sonra çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Ermənistanın müharibə cinayətlərinin beynəlxalq müstəvidə ifşa olunması üçün gənclərin üzərinə müəyyən vəzifələrin düşdüyünü deyib. O, qeyd edib ki, müharibə hərb cəbhəsində başa çatsa da, informasiya cəbhəsində davam edir. Bu səbəbdən də Azərbaycan gəncləri beynəlxalq hüquqa istinad edərək ermənilərin müharibə cinayətlərinin dünya ictimaiyyətinə çatdırılması işində daha böyük fəallıq göstərir və bunda sonra da göstərəcəklər.

Tədbirdə daha sonra YAP Veteranlar Şurasının üzvləri Elman Məmmədov, Xeyrəddin Qoca, Əli Həsənov çıxış ediblər və gənclərin sualları cavablandırılıb.

# Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb



Azərbaycan və Özbəkistan prokurorluqları arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistan Respublikasının baş prokuroru Niqmatilla Yuldaşevin dəvəti ilə Daşkəndə rəsmi səfər edib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyəti "Yangi Özbəkistan" parkına gələrək müstəqillik abidəsinin önünə əklil qoyub.

Aprelin 13-də Özbəkistan Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib. Ölkəmizin nümayəndə heyətini səmimi salamlayan Özbəkistanın baş prokuroru Niqmatilla Yuldaşev bütün sahələrdə olduğu kimi, ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib.

Baş prokuror Kamran Əliyev yüksək qonaqpərvərliyə və səmimi görüşə görə həmkarına minnətdarlığını ifadə edərək tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin siyasi iradələri ilə reallaşan mühüm əhəmiyyətli strateji layihələrin ölkələrimizi daha da yaxınlaşdıracağı, xalqlarımızın rifahına xidmət göstərəcəyini xüsusi olaraq vurğulayıb.

Baş prokuror Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi dövründə qardaş Özbəkistanın ölkəmizə dəstəyinə görə təşəkkürünü bildirərək, Qarabağda aparılan geniş quruculuq bərpa işləri haqda həmkarını məlumatlandırıb.

Niqmatilla Yuldaşev ölkəmizi möhtəşəm Qələbə münasibətilə təbrik edərək Azərbaycanın ərazi bütövlüyünün bərpasını, bütövlükdə region üçün əhəmiyyətini vurğulayıb.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılıb, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

Həmçinin 2021-ci il noyabrın 1-də Bakı şəhərində Türk Dövlətləri Təşkilatının Baş Prokurorları Şurasının ilk iclası çərçivəsində qurumlar arasında imzalanmış əməkdaşlığa dair razılaşma və 2022-2023-cü illər üzrə əməkdaşlıq proqramının müddəalarından irəli gələn tədbirlərin görülməsi müzakirə olunub.

Daha sonra nümayəndə heyəti Özbəkistan Baş Prokurorluğunun Akademiyası və Tarix Muzeyi ilə tanış olub.

Görüşdə ölkəmizin Özbəkistandakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyev iştirak edib.

Nümayəndə heyətinin səfəri davam edir.

# BMT ilə Azərbaycan arasında tərəfdaşlığın 30-cu ildönümünə həsr olunmuş konfransın açılış mərasimi keçirilib

**Aprelin 13-də ADA Universitetində BMT ilə Azərbaycan arasında tərəfdaşlığın 30-cu ildönümünə həsr olunmuş üçgünlük BMT Modeli Konfransının açılış mərasimi keçirilib.**











AZƏRTAC xəbər verir ki, konfrans BMT-nin Azərbaycandakı nümayəndəliyi, Xarici İşlər Nazirliyi, ADA Universiteti və ADAMUN-un birgə təşkilatçılığı ilə reallaşıb. Tədbirin açılış mərasimində 120-dən çox hökumət və BMT rəsmisi, eləcə də akademik dairələrin, vətəndaş cəmiyyətinin və KİV nümayəndələri iştirak ediblər.

Konfransda çıxış edən xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, bu il Azərbaycan və BMT səmərəli tərəfdaşlıq və əməkdaşlığın 30 illiyini qeyd edir. BMT-nin ölkə üzrə Bakıdakı İdarə Heyəti ilə birlikdə bu əlamətdar hadisəni qeyd etmək üçün bir sıra tədbirlər təşkil edirik. Bu gün açılışını etdiyimiz Simulyasiya Konfransı parlaq gəncləri bir araya gətirən tədbirlərdən biridir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına üzv olduqdan sonra BMT Nizamnaməsinin məqsəd və prinsiplərini rəhbər tutaraq qaydalara əsaslanan beynəlxalq nizama ciddi riayət olunmasını qorumaq və təşviq etmək üçün səylərini əsirgəməyib.

"Biz davamlı inkişaf üçün kollektiv öhdəliyə fəal töhfə veririk və BMT-nin geniş əhatəli gündəliyində bütün səviyyələrdə iştirak edirik. Biz digərləri ilə yanaşı, regionumuzda və onun hüdudlarından kənarda sülhü təşviq edir, digər ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlığımızı inkişaf etdirir, BMT-nin sülhməramlı əməliyyatlarında iştirak edir, COVID-19 pandemiyasının mənfi nəticələrinin aradan qaldırılması üçün səyləri dəstəkləyir və humanitar çağırışlara cavab veririk. Biz həm də çoxtərəfliliyin güclü tərəfdarıyıq və mədəniyyətlərarası dialoqun ən böyük təşviqatçılarından biriyik. Azərbaycan hazırda dünyada ikinci ən böyük dövlətlər qrupuna - Qoşulmama Hərəkatına (QH) sədrlik edir. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi qəbul etməsi dövrümüzün ən böyük qlobal problemlərindən biri - COVID-19 pandemiyası ilə üst-üstə düşdü. Bununla belə, biz mövcud problemləri əməkdaşlıq imkanlarına çevirə bilmişik. Qoşulmama Hərəkatına sədrliyimiz dövründə Prezident İlham Əliyevin təşkilatın sədri kimi irəli sürdüyü qlobal miqyaslı bir sıra mühüm təşəbbüslər vasitəsilə çoxtərəflilik yeni təkan qazanıb. bəşəriyyət, davam edən pandemiya ilə yanaşı, beynəlxalq təhlükəsizlik sisteminin müxtəlif blokların təzadlı yanaşmaları ilə yenidən sınaqdan keçdiyi çox çətin bir dövrü yaşayır. Artan ziddiyyətlər Qoşulmama Hərəkatının etibarlılığını və tarixi aktuallığını bir daha təsdiqləyir", - deyə Ceyhun Bayramov əlavə edib.

Azərbaycanın davamlı inkişaf üçün kollektiv öhdəliyə fəal töhfə verdiyini və BMT-nin geniş əhatəli gündəliyində bütün səviyyələrdə iştirak etdiyini söyləyən nazir deyib: "Biz digərləri ilə birlikdə regionumuzda və onun hüdudlarından kənarda sülhü təşviq edir, digər ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlığımızı inkişaf etdirir, BMT-nin sülhməramlı əməliyyatlarında iştirak edir, COVID-19 pandemiyasının mənfi nəticələrinin aradan qaldırılması üçün səyləri dəstəkləyir və humanitar çağırışlara cavab veririk. Biz həm də çoxtərəfliliyin güclü tərəfdarıyıq və mədəniyyətlərarası dialoqun ən böyük təşviqatçılarından biriyik".

Tədbirdə çıxış edən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva bildirib ki, Azərbaycan BMT-nın dəyərli tərəfdaşı və üzvüdür. O, dayanıqlı, güclü dünyanın qurulmasında Azərbaycanla BMT-nin birlikdə çalışacaqlarına inandığını qeyd edib.

"Gənclərin təxəyyülü, idealları və enerjisi onların yaşadıqları cəmiyyətlərdə davamlı inkişaf üçün çox əhəmiyyətlidir. Çalışmalıyıq ki, gənclərin masa arxasında öz yeri olsun və onlar daha yaşıl, sağlam və təhlükəsiz dünyanın qurulması üçün həllərin hazırlanmasında kömək etsinlər. Bugünkü simulyasiyada gənclər BMT platformasında qlobal çətinliklərlə mübarizədə qəbul edilən qərarların necə verildiyini öyrənəcəklər", - deyə BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi diqqətə çatdırıb.

Qlobal problemlərdən danışan Vladanka Andreyeva diqqətə çatdırıb ki, iqlim dəyişikliyi, ksenofobiya, dezinformasiya, münaqişələr, aclıq, kibertəhlükələr və digər bu kimi problemlər bu gün bütün dünyanın üzləşdiyi çətinliklərdir. Bütün bunlar, eyni zamanda, gənclərə də təsir edir. Hazırda münaqişə zonalarında yaşayan gənclər həyati risklərlə üzləşir, onların təhsilə əlçatanlığı bir çox halda qeyri-mümkün olur.

Konfrans 8 universitet və 7 orta məktəbdən qatılmış 70 tələbə və şagird BMT-nin Təhlükəsizlik Şurasının iclasını, BMT-nin İqlim Dəyişmələri Konfransını - ADACOP-u, eləcə də BMT-nin İqtisadi və Sosial Şurasının sessiyasını simulyasiya edəcək. Onlar kibertəhlükəsizlik, insanların məcburən didərgin düşməsi, iqlim dəyişiklikləri və ərzaq təhlükəsizliyi kimi qlobal təxirəsalınmaz məsələlər ətrafında müzakirələr aparacaq və qətnamələr qəbul edəcəklər.

# Koreya şirkətləri ölkəmizdə müxtəlif infrastruktur layihələrində uğurla iştirak edirlər

Aprelin 13-də Milli Məclisin Azərbaycan-Koreya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Malik Həsənov Koreya Respublikasının ölkəmizdəki səfiri Li İn-Yonq ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan-Koreya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Malik Həsənov qonağı salamlayaraq ona səfir kimi fəaliyyətində uğurlar arzulayıb. Ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın davam etdiyini bildirən Malik Həsənov Azərbaycan və Cənubi Koreya prezidentlərinin qarşılıqlı səfərləri nəticəsində iki dövlət arasında əlaqələrin daha da inkişaf etdiyini vurğulayıb, ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin əhəmiyyətini qeyd edib.

İqtisadi sahədə əməkdaşlığa toxunan Malik Həsənov Koreya şirkətlərinin ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən infrastruktur və inşaat layihələrində uğurla iştirak etdiklərini deyib. O, Azərbaycan ilə Koreya arasında ticarət və investisiya sahəsində əməkdaşlığın genişlənməsi üçün böyük potensial olduğunu deyərək bu istiqamətdə səfirin fəaliyyətinin iki ölkə arasındakı əlaqələrə dəyərli töhfə verəcəyinə inandığını söyləyib.

Milli Məclisin Azərbaycan-Koreya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Rauf Əliyev də səfirə yeni vəzifəsində uğurlar diləyib, Azərbaycan-Koreya əlaqələrinin inkişaf etdirilməsi ilə bağlı fikirlərini bildirib, idman və təhsil sahəsində əməkdaşlıq barədə təkliflərini səsləndirib.

Li İn-Yonq səfir kimi ilk fəaliyyətinin ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə təsadüf etməsindən, Azərbaycan-Koreya münasibətlərinin ötən illərdə inkişafından məmnunluğunu vurğulayaraq, əlaqələrin daha da genişləndirilməsinin vacibliyini bildirib.

Diplomat ölkəsinin Azərbaycanda həyata keçirdiyi layihələrdən söz açıb. O, fəaliyyəti dövründə iki ölkə arasında əlaqələrin inkişafı üçün bütün səylərini əsirgəməyəcəyini qeyd edib.

Görüşdə Milli Məclisin Azərbaycan-Koreya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Ülvi Quliyev də iştirak edib.

# Rumıniya Azərbaycanı özünə dost və qardaş ölkə sayır

Aprelin 13-də Milli Məclisin deputatı, Rumıniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azay Quliyev Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vasile Soare ilə görüşüb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan-Rumıniya əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edən Azay Quliyev Rumıniya Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olduğunu deyib. Dövlətlərimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişaf etməkdə olduğunu diqqətə çatdıran Milli Məclisin deputatı bildirib ki, xalqlarımız arasında mehriban dostluq münasibətləri mövcuddur.

İki ölkə arasındakı münasibətlərin müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı imkanlar olduğunu diqqətə çatdıran A.Quliyev səmərəli əlaqələrin inkişafında parlamentlərin xüsusi rolunu qeyd edərək deyib: "Azərbaycan Milli Məclisində və Rumıniya parlamentində dostluq qrupları fəaliyyət göstərir. Deputatlarımız həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edirlər. Bu sahədə münasibətlərin daha da möhkəmləndirilməsi üçün qarşılıqlı səfərlər mühüm rol oynayır".

Azərbaycanın tarixi Zəfərindən danışan deputat işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işlərindən bəhs edib. Bildirilib ki, bu ərazilərdə infrastruktur yenilənir, yollar salınır, hava limanları inşa edilir. Lakin torpaqlarımızın erməni qəsbkarları tərəfindən minalanması aparılan quruculuq işlərinə maneə törədir. Eyni zamanda bu minaların partlaması nəticəsində hərbçilərimiz və mülki vətəndaşlarımız həlak olurlar. Ermənistan tərəfinin verdiyi xəritələr isə qeyri-dəqiqdir.

Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare ölkəsinin Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu deyib. O, ölkələrimiz arasında münasibətlərin dərinləşməsi üçün səylərini əsirgəməyəcəyini söyləyib, Azərbaycandakı diplomatik fəaliyyəti müddətində ölkəmizin rəsmiləri ilə keçirdiyi görüşləri məmnunluqla xatırlayıb.

Səfir qeyd edib ki, Rumıniya Azərbaycanı özünə dost və qardaş ölkə hesab edir. O, ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, təhsil, humanitar sahələrdə əlaqələrin genişləndirilməsinin vacibliyindən danışıb. Münasibətlərin möhkəmləndirilməsində parlamentlər arasında əməkdaşlığın inkişaf etdirilməsinin böyük əhəmiyyət daşıdığını bildirib və ölkələrimiz arasında əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsində olmasından məmnunluğunu bildirib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan Almaniya üçün Cənubi Qafqazda vacib iqtisadi tərəfdaşdır

Aprelin 13-də Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfov Almaniya Federativ Respublikasının ölkəmizdəki səfiri Volfqanq Maniqlə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunması münasibətilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Almaniya arasında diplomatik münasibətlərin tarixinə nəzər salınıb, iki ölkə arasında əlaqələrin bütün səviyyələrdə inkişaf etdiyi qeyd edilib, gələcək əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

X.Xələfov Azərbaycan ilə Almaniya arasında siyasi dialoqun davam etdirilməsinin vacibliyini və iqtisadi sahədə müşahidə olunan müsbət dinamikanı məmnunluqla qeyd edib. Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinə toxunaraq ölkəmizin Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rolunu vurğulayıb. Bu mənada ötən ay xarici işlər və energetika nazirlərinin Berlinə işgüzar səfərlərinin Almaniyanın yeni hökuməti ilə ikitərəfli gündəlikdəki məsələlərin müzakirəsi baxımından əhəmiyyəti qeyd edilib.

X.Xələfov 44 günlük Vətən müharibəsindən sonra bölgəmizdəki vəziyyət, postmünaqişə dövrü ilə bağlı Azərbaycanın baxışı və regionda sülhün bərqərar olması istiqamətində ölkəmiz tərəfindən atılan addımlar barədə məlumat verərək, Almaniyanın regionda yaranmış yeni reallıqlara anlayışla yanaşmasını müsbət qiymətləndirib.

Səfir Volfqanq Maniq diplomatik münasibətlərinin qurulmasının 30 illiyinin qeyd olunması münasibətilə təbriklərini çatdıraraq, Azərbaycanın Almaniya üçün Cənubi Qafqazda vacib iqtisadi tərəfdaş olduğunu vurğulayıb. Səfir baş tutmuş ikitərəfli yüksəksəviyyəli səfərlərin əhəmiyyətini, həmçinin ölkələrimiz arasında siyasi, iqtisadi, təhlükəsizlik, mədəni və digər sahələrdə əməkdaşlığın inkişaf etdiyini diqqətə çatdırıb. V.Maniq səfirliyin Bakıda Alman Akademik Mübadilə Xidməti (DAAD) və Goethe Mərkəzinin fəaliyyətinə xüsusi önəm verdiyini, bunun humanitar sahədə əlaqələrə töhfə verdiyini diqqətə çatdırıb.

Görüşdə həmçinin XIX əsrdə alman icmasının Azərbaycanda məskunlaşması tarixi mirasının xalqlarımız arasındakı xoş münasibətlərə təsiri məmnunluqla xatırlanıb.

Daha sonra tərəflər diplomatik münasibətlərin 30 illiyi münasibətilə hazırlanmış fotoalbomla tanış olublar.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu olub

Mərkəzi icra hakimiyyəti orqanları, digər idarəetmə qurumlarının rəhbərlərinin 2022-ci ilin aprel ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq "Azərsu" ASC-nin sədr müavini Köçərli Həsənov aprelin 12-də Gəncə şəhəri, Samux və Kəlbəcər rayonlarından olan vətəndaşlarla görüşüb.

ASC-dən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl "Azərsu"nun sədr müavini Köçərli Həsənov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstəsi düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını ifadə ediblər.

Gəncə şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Gəncə şəhəri, Samux və Kəlbəcər rayonlarından olan 64 nəfər iştirak edib. Vətəndaşların müraciətləri içməli su təchizatı və kanalizasiya xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub.

Hər bir vətəndaşı dinləyən K.Həsənov müraciətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırmaya ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şəraitin yaradılmasından razılıqlarını dilə gətirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Fransalı tanınmış bloqçu Naftalanda çəkilişlər aparıb

Mədəniyyət Nazirliyi və Azərbaycanın Fransadakı səfirliyinin dəstəyi ilə məşhur fransalı bloqçu Patrik Veiseller Azərbaycana səfəri çərçivəsində Naftalanda da olub.



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov beynəlxalq turizm mərkəzinə çevrilən Naftalan şəhəri haqqında qonağa ətraflı məlumat verib. Fransalı bloqçu Azərbaycanın Mədəniyyət Nazirliyinə və ələqədar təşkilatlara belə bir təşəbbüsü dəstəklədiklərinə görə minnətdarlığını bildirib, ölkəmizə ilk səfərindən məmnun qaldığını və Naftalanla tanışlıqdan böyük zövq aldığını bildirib.

Qeyd edək ki, məşhur bloqçu "Netfiliks" platforması üzərindən Azərbaycan mədəniyyətinin təbliğatına yönələn layihəni təqdim edəcək. Avtomobil turu formatında həyata keçirilən layihədə "Patrick le Chinois" ləqəbli bloqçu şəhərin mədəni-tarixi məkanlarında çəkilişlər aparıb. Sonda qonağa şəhər icra hakimiyyəti başçısı tərəfindən xatirə hədiyyələri təqdim olunub.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Birinci rübdə 368 layihə maliyyələşdirilib

Sahibkarlığın İnkişafı Fondu ümumilikdə 46 müvəkkil kredit təşkilatı ilə əməkdaşlıq edir.

AZƏRTAC fonda istinadla xəbər verir ki, güzəştli kredit mexanizmi çərçivəsində 2022-ci ilin yanvar-mart ayları üzrə 368 layihənin maliyyələşdirilməsi həyata keçirilib. 2022-ci ilin yanvar-mart ayları ərzində ən çox sayda kredit verən 5 müvəkkil kredit təşkilatının siyahısına daxildir: "Bank Respublika" ASC, "Unibank" KB ASC, "AccessBank" QSC, "Yelo Bank" ASC və "Aqrarkredit" QSC BOKT.

# Şəxsi heyətin məşğələləri davam edir

Əlahiddə Ümumqoşun Ordunun birləşmələrindəki Təlim-Tədris Mərkəzlərində mövcud olan xüsusi proqram təminatına malik kompüterlər və məşq qurğularının tətbiqi ilə keçirilən məşğələlərdə komandirlərin real döyüş şəraitində bölmələri və silahları idarəetmə bacarıqları yoxlanılır, şəxsi heyətin praktiki vərdişləri təkmilləşdirilir.

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, şəxsi heyətin virtual təlim meydançasında qazandığı bacarıqlar səhra şəraitində təşkil olunan məşğələlərdə yerinə yetirilən tapşırıqların icra vəziyyəti ilə qiymətləndirilir. Daimi dislokasiya məntəqələrində və təlim mərkəzlərində pilotsuz uçuş aparatı və dron heyətləri, rabitə bölmələri və reaktiv artilleriya batareyaları uzlaşmış fəaliyyətləri yerinə yetirirlər. Çətin dağlıq şəraitlərdə antiterror əməliyyatlarının icrasını və dağlarda praktiki döyüşü mükəmməl mənimsəmiş xüsusi təyinatlı bölmələr tərəfindən şərti düşmənin terror qruplaşmaları məhv edilir.

Mühəndis bölmələri səhra şəraitində müvafiq tapşırıqları icra edirlər.

Əlahiddə Ümumqoşun Ordunun Təlim Mərkəzi və poliqonlarında döyüş atışlı məşğələlərə cəlb edilən tank, mexanikləşdirilmiş və motoatıcı bölmələrin hərbi qulluqçularının silah və texnika ilə davranış qaydaları, nəzəri bilikləri və praktiki bacarıqları yoxlanılır. Məşğələlərdə zirehli tank texnikalarının ekipajları 44 günlük Vətən müharibəsində döyüş sahəsində qazanılmış təcrübəni mənimsəməklə müxtəlif manevrlərlə maneələri dəf edir və atışlar həyata keçirirlər.

Motoatıcı bölmələrin şəxsi heyətinin atıcılıq məharətinin və praktiki vərdişlərinin təkmilləşdirildiyi məşğələlərdə müxtəlif çaplı atıcı silahlardan, snayper tüfənglərindən və əl qumbaralarından atış çalışmaları yerinə yetirilir.

Şəxsi heyətin müxtəlif silah nümunələrinin tətbiqi ilə yüksək səhra bacarığı nümayiş etdirdiyi məşğələlər davam edir.

# İlham Əliyevin beş prinsipini Ermənistan qəbul edir

## Azərbaycan Prezidentinin sülh sazişinin bağlanması üçün irəli sürdüyü təkliflər hər iki xalqın istəklərini əks etdirir



**"Postmünaqişə dövründə dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər... Eyni zamanda Avropa İttifaqı ilə bizim təmaslarımız müharibədən sonra daha intensiv xarakter almışdır. Avropa İttifaqı da postmünaqişə dövrünün reallıqlarını qəbul etmişdir".**

Aprelin 12-də cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədəki çıxışında Prezident İlham Əliyev son aylarda Ermənistanla aparılan danışıqları, sülh sazişinin bağlanması ilə bağlı məsələləri, Avropa İttifaqının təşkilatçılığı ilə keçirilən üçtərəfli görüşləri dəyərləndirərək bir daha reallığı, əsl həqiqəti bəyan etdi.

Prezident birmənalı olaraq ictimaiyyətin diqqətinə çatdırdı ki, məğlub ölkə qalib Azərbaycanın irəli sürdüyü istənilən təkliflə hesablaşmağa məhkumdur. Çünki Ermənistanın düşdüyü acınacaqlı durumdan, daxili xaosdan qurtuluş yolu yalnız Azərbaycanla münasibətləri normallaşdırmaqdan keçir.

### Yekun kommunikedə "Dağlıq Qarabağ" və "münaqişə" sözü yoxdur

Müşavirədə bir daha sülh danışıqlarına, üçtərəfli görüşlərə toxunaraq həqiqətləri açıqlayan Prezident dedi ki, Dağlıq Qarabağ münaqişəsi artıq həll olunub, indi əsas məsələ Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasıdır və bu sahədə öz töhfəsini verə bilən istənilən təşkilat qəbulediləndir. Bu baxımdan Avropa İttifaqının sərgilədiyi mövqe təqdir edilməlidir. Çünki müharibədən sonra bu təşkilatla münasibətlər, təmaslar daha intensiv xarakter alıb. Prezidentin söylədiyi kimi, Avropa İttifaqı da postmünaqişə dövrünün reallıqlarını qəbul edib.

İndi Avropa İttifaqı Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması ilə məşğuldur və son aprel görüşündə bu məsələlər müzakirə edilib. Müzakirələr, əsasən, Azərbaycan Prezidentinin sülh sazişinin imzalanması üçün irəli sürdüyü 5 prinsipdən ibarət təklifləri əsasında aparılır. Prezident bu məsələyə konkret toxunaraq bir daha təsdiqlədi ki, Ermənistan qalib ölkə ilə hesablaşır: "Azərbaycan iki ölkə arasındakı əlaqələri normallaşdırmaq üçün 5 prinsipdən ibarət təklif vermişdir və Ermənistan tərəfi də bu təklifə müsbət yanaşmışdır və Brüssel görüşünə qədər artıq bu açıqlamalar verilmişdir. Brüssel görüşündə isə mən bunu özüm üçün, sadəcə olaraq, daha da, yəni aydınlaşdırmaq istəyirdim və aydınlaşdırdım ki, Ermənistan 5 prinsipi qəbul edir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü qəbul edilir və Ermənistan Azərbaycana ərazi iddiasından əl çəkir. Yəni əgər bu 5 prinsipi qəbul edirsə, - bu, aprel görüşündə təsdiqləndi, - bu məsələlər bu 5 prinsipin tərkib hissəsidir. Bu, çox müsbət haldır və hesab edirəm ki, ikitərəfli əlaqələrin normallaşdırılması üçün əsas şərtdir".

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə dekabr və aprel aylarında keçirilən üçtərəfli görüşü dəyərləndirən Prezident vurğuladı ki, aparılan danışıqlarla bağlı yekun kommunikedə "Dağlıq Qarabağ" adı yoxdur, bu da təbiidir. Çünki Azərbaycan buna etiraz edib və hazırda münaqişə olmadığı üçün dialoqlarda "münaqişə" sözü də mövcud deyil.

Görüşdə, tərəflər həm sərhədlə, həm də sülh müqaviləsinin hazırlanması ilə bağlı işçi qruplarının yaradılması barədə razılığa gəliblər. Prezident isə bu qruplara ciddi tapşırıq və tövsiyələrini verdi: "Hesab edirəm ki, sərhədin delimitasiyası ilə bağlı aprelin sonuna qədər formalaşdırılacaq işçi qruplar, eyni zamanda sülh müqaviləsinin hazırlanmasına dair işçi qruplar tezliklə öz işinə başlamalıdır. Bu prosesə biz çox böyük ümidlərlə baxırıq və vaxt itirmək lazım deyil. Hər halda, biz bunun tərəfdarıyıq ki, vaxt itirmədən məsələnin həllinə başlayaq".

### Məğlub tərəf qalibin şərtlərini qəbul etmək məcburiyyətindədir

Göründüyü kimi, bir müddət öncə sülh danışıqlarından yayınan Ermənistan artıq doğru yolu seçib və qarşılıqlı anlaşma fonunda yaxın zamanlarda sazişin imzalanması qaçılmazdır. Anlaşma göstərir ki, Ermənistan Azərbaycanın istəklərini qəbul edir. Burada söz sahibi olan ölkə Azərbaycandır. Zəfər qazanan ölkə danışıqlar masasında uduzan tərəfdən üstün olur. Yenilən tərəf qalibin şərtlərini qəbul etmək məcburiyyətindədir.

Sülh sazişi imzalanarsa, İlham Əliyevin Ermənistana təqdim etdiyi 5 prinsipi özündə əks etdirən təkliflər paketi icra olunmalıdır.

İlk növbədə dövlətlər bir-birilərinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanımalı, bir-birilərinə qarşı ərazi iddialarının olmamasını qarşılıqlı təsdiq etməli və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəlik götürməlidirlər.

Bununla yanaşı, dövlətlərarası münasibətlərdə bir-birilərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədədən, gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinməli, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması təmin edilməlidir. Həmçinin nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq qurulmalıdır.

### Münasibətlər sülh sazişinin müddəaları əsasında tənzimlənəcək

Ən mühümü isə tərəflərin sərhəd məsələləri üzrə birgə komissiyanın yaradılmasıdır. Bununla sərhəddə gərginlik aradan qaldırıla, delimitasiya və demarkasiya prosesi hər hansı süni müdaxilə olmadan davam etdirilə bilər. Minalanmış ərazilərin təmizlənməsi, quruculuq işlərinin aparılması, itkin düşmüş şəxslərin tapılması ilə əlaqədar qurum öz imkanlarından istifadə edər.

Aktual məsələlərdən biri də Qarabağın Rusiya sülhməramlılarının nəzarətində olan hissəsində qalan erməni silahlıları ilə bağlıdır. Saziş imzalansa, Ermənistan həmin silahlı birləşmələri ərazilərimizdən tamamilə çıxaracaq. Belə olan halda Azərbaycan Ordusunun antiterror əməliyyatları keçirməsinə ehtiyac qalmayacaq və münasibətlər sülh sazişinin müddəaları əsasında tənzimlənəcək.

Nəqliyyat və kommunikasiyaların açılışına gəldikdə isə, artıq Azərbaycan bu istiqamətdə uğurlu addımlar atır. Müharibədən sonra Prezident İlham Əliyev bu sahədə olduqca əhəmiyyəli layihələr reallaşdırıb.

Füzuli Hava Limanı açılıb, Zəngilanda və Laçında isə yeniləri inşa edilir. İki iqtisadi rayonda ümumilikdə 16 avtomobil yolu layihəsi icra edilir, körpülər, tunellər inşa olunur. Tezliklə Zəngilanda modern yaşayış sahəsi olan "ağıllı kənd" layihəsinin ilk mərhələsi hazır olacaq və Böyük qayıdışa start veriləcək. İşğaldan azad edilən bütün ərazilər elektrik enerjisi ilə təmin ediləcək. Artıq bu ərazilərdə onlarca enerji stansiyaları istismara verilib. Həmçinin işğaldan azad edilmiş ərazilərimizə işıq, su xətləri çəkilir. Qarabağ və Şərqi Zəngəzurun zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə edilməsi üçün bir sıra əhəmiyyətli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Beləliklə, Azərbaycan dövləti yalnız öz gücünə Qarabağ və Şərqi Zəngəzuru yenidən quraraq dünyaya iqtisadi qüdrətini göstərir.

Əgər regionda kommunikasiya xətlərinin bərpası reallaşarsa, bu həm Azərbaycana, həm də Ermənistana iqtisadi dividendlər gətirəcək. Əlbəttə ki, ilk növbədə nəqliyyat və kommunikasiya məsələlərinin həlli aktualdır və diqqət mərkəzində saxlanılır.

Brüsseldə keçirilən üçtərəfli görüşdən sonra bəlli oldu ki, iki ölkə arasında münasibətlərdə müsbət irəliləyiş yaranır. Amma bu hələ başlanğıc mərhələdir. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin görüşdən sonrakı ümidverici bəyanatı göstərdi ki, beynəlxalq təşkilatlar da regionda sülhün tez bir zamanda bərqərar olunmasının tərəfdarıdırlar. Çünki Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısı, ən mühüm qaz ixracatçısıdır. Azərbaycanın təhlükəsizliyi və rifahı bütün regiona fayda gətirir, daha sürətli inteqrasiyaya kömək edir, iqtisadi və mədəni imkanları genişləndirir: "Biz Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla çox səmərəli görüş keçirdik. Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və inkişaf Avropa İttifaqı üçün olduqca mühümdür. Buna görə də, sülh sazişini hazırlamağa və bu saziş üçün bütün zəruri elementləri həll etməyə qərar vermişik. Biz, həmçinin həssas məsələ olan delimitasiya ilə bağlı işçi qrupu, birgə komissiya ilə bağlı razılığa gəldik. Əminəm ki, növbəti həftələrdə əldə olunacaq tərəqqini nəzərdən keçirmək üçün bizim aramızda güclü kommunikasiya və koordinasiya olacaq".

Şarl Mişelin fikirlərindən tam aydın olur ki, Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və inkişaf Avropa İttifaqı üçün çox vacibdir. Bu səbəbdən Aİ bütün müsbət səyləri, etimadyaratma tədbirlərini dəstəkləyir. Brüsseldə delimitasiya ilə bağlı işçi qrupu, birgə komissiya ilə bağlı razılıq əldə olunub. Növbəti həftələrdə də müəyyən irəliləyişlərlə bağlı anons verildi. Təbii ki, burada ortaq iradə olduqca vacibdir. Mümkün sülh sazişi üçün Ermənistan ortaq iradə göstərməyə məcburdur. Aİ rəhbərliyi hesab edir ki, tərəflər indiki vəziyyətdə ortaq məxrəcə gəlmək, bütün regionda sülhü, təhlükəsizliyi və sabitliyi təmin etmək üçün mümkün qədər tez bir zamanda dayanıqlı razılaşma əldə etmək məqsədilə vacib elementlərin nədən ibarət olduğunu daha yaxşı başa düşür.

### Xəstə təxəyyüllü erməni milliyyətçiliyindən imtina edilməlidir

Əslində, Azərbaycan ilk gündən sülhə hazır olduğunu bəyan edib və bu istiqamətdə praktik addımlar atıb. Ötən ay rəsmi Bakının təqdim etdiyi baza prinsipləri bunu təsdiqləyir.

Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda abadlıq-quruculuq işləri, minatəmizləmə əməliyyatları apardığı halda, Ermənistan nəinki sülh sazişini imzalamaq barədə danışıq aparırdı, heç bəyanatda nəzərdə tutulan öhdəliyinin yerinə yetirilməsi ilə bağlı addım da atmırdı. Amma Cənubi Qafqazda baş verən reallıqlar Ermənistana bir daha göstərdi ki, Azərbaycan, xüsusən də onun qalib komandanı İlham Əliyevlə hesablaşmaqdan başqa çıxış yolu yoxdur.

Siyasi ekspertlər də hesab edirlər ki, iki ölkə arasında ümumi razılığın əldə edilməsi hər iki xalqın maraqlarına xidmət edən reallıqdır. İndi diqqətlər Birgə Sərhəd Komissiyasının iclasına yönələcək. Çünki aprel ayının sonunadək iclasın keçirilməsi ilə bağlı razılığın əldə edilməsi əhəmiyyətli hadisədir. Bu komissiya Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası, eləcə də sərhəd xətti boyu və onun yaxınlığında sabit təhlükəsiz vəziyyətin təmin edilməsi ilə məşğul olacaq.

Dünyada baş verən hadisələri doğru və düzgün dəyərləndirən İlham Əliyev güclər balansından milli maraqlarımız naminə faydalanma qabiliyyəti ilə Azərbaycana daha yaxşı nəticələri bəxş etməkdədir. Qlobal miqyasda cərəyan edən hadisələri təhlil edərkən bütün dünyanın əsas siyasi, iqtisadi və hərbi gücləri ilə münasibətlərin bərabər müstəvidə həyata keçirilməsinin doğru diplomatik gediş olduğunu görməkdəyik. Azərbaycanın istəyi bütün müttəfiqləri ilə qarşılıqlı və faydalı münasibətlər qurmaqdır. Əlbəttə ki, ilk növbədə milli maraqlarımızın təmini, müstəqilliyin daha da güclənməsi əsas hədəfdir. Brüssel görüşü isə bir daha təsdiq etdi ki, İlham Əliyev hər iki xalqın maraqlarını əks etdirən ədalətli sülhün tərəfdarı və təminatçısıdır. Artıq sadə ermənilər də yaxşı anlayırlar ki, xəstə təxəyyüllü erməni milliyyətçiliyi onlara heç nə qazandırmayıb və qazandırmayacaq. Yeganə yol Azərbaycanla hesablaşmaqdır. Son günlər Ermənistanın baş naziri Nikol Paşinyan və bu ölkənin siyasi elitası Azərbaycanla sülh sazişinin imzalanması məsələsini gündəmə gətirərək, iki ölkə arasında razılaşmanın əldə olunmasının vacibliyini bildirmələri, rəsmi Bakının da artıq İrəvandan müsbət mesajların daxil olduğunu bəyan etməsi təsdiq edir ki, məğlub ölkə artıq bütün reallıqları qəbul edir.

Xatırladaq ki, hələ aprelin 9-da Prezident İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı zamanı qalib komandan Azərbaycanın Ermənistanla dövlətlərarası münasibətlərin qurulması üçün beş prinsipdən ibarət təqdim etdiyi sənədi və məğlub ölkənin bu prinsipləri qəbul etdiyini xatırlatmışdı. Xarici işlər naziri Ceyhun Bayramov isə İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio ilə birgə mətbuat konfransında bildirmişdi ki, son günlər rəsmi İrəvandan bu məsələ ilə bağlı müsbət reaksiyalar gəlir: "Son günlər Ermənistan tərəfdən müxtəlif şəxslərdən bu istiqamətdə müsbət mesajlar alırıq. Güman etmək istərdim ki, bu həqiqətən də ciddi bir yanaşmanın təzahürüdür. Hər hansı ictimai məlumatlandırma kampaniyası deyil. Azərbaycan öz mövqeyini açıq şəkildə ifadə edib. Əgər Ermənistan həqiqətən də bu proseslə ciddi məşğul olmağa hazırdırsa, Azərbaycan buna qarşılıq verməyə, konkret addımlar atmağa hazırdır".

Göründüyü kimi, Ermənistan sonunda İlham Əliyevin uzaqgörən siyasətinin hər iki tərəfin mənafelərinə xidmət etdiyini anlayaraq sülh sazişini bağlamağa razılıq verir. Çünki ermənilər yaxşı başa düşürlər ki, bu saziş məğlub ölkənin qurtuluşu olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Süni qiymət artımına imkan verilməyəcək

## Azərbaycan dövləti öz vətəndaşlarını qorumaq üçün lazım olan bütün addımları atır

Bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə toxunulan məsələlərdən biri də qiymət artımı ilə bağlı oldu.

Məlum olduğu kimi, qiymət artımı hazırda qlobal miqyas daşıyır və Prezident İlham Əliyevin də vurğuladığı kimi, dünyada ərzaq məhsullarının qiymətləri kəskin artır. Rusiya ilə Ukrayna arasındakı müharibə isə bu prosesi daha da sürətləndirib.

### Ehtiyatlar artırılır, daxili təminat gücləndirilir

İndiki halda qiymət artımı dünyada baş verən proseslərdən qaynaqlanır və o cümlədən inflyasiya da bundan irəli gəlir. Dünyada ərzaq qiymətlərinin artması əksər ölkələrdə, o cümlədən Azərbaycanın əsas ticarət tərəfdaşlarında inflyasiya təzyiqləri yüksəlmişdir. Dünya Bankının əmtəə bazarlarına dair məlumatlarına əsasən, 2021-ci ildə əvvəlki illə müqayisədə qeyri-enerji qiymətləri 20 faizdən çox artıb. BMT FAO təşkilatının məlumatına görə, dünyada ərzaq qiymətləri 23 faizdən çox artıb və son 10 ilin ən yüksək səviyyəsinə çatıb.

Qlobal miqyasda ərzaq və digər məhsulların qiymətinin artması isə təbii ki, ölkələrin daxili qiymətlərinə də təsir edir. Bu baxımdan hazırda Azərbaycan hökumətinin də qarşısında mühüm vəzifələr dayanır. Əsas vəzifələrdən biri təbii ki, respublikamızın strateji kənd təsərrüfatı məhsulu olan taxılla təminatdır. "Hökumətə bu məsələ ilə bağlı göstəriş verilmişdir. Operativ tədbirlər görülüb və ehtiyatlar yığılır. Biz daha çox ehtiyat yığmalıyıq. Ancaq, eyni zamanda bilməliyik ki, belə vəziyyət uzun müddət ərzində davam edə bilər və yəqin ki, davam edəcək. Ona görə burada, ilk növbədə daxili təminatımız artmalıdır", - deyə Prezident İlham Əliyev müşavirədə bu barədə bildirib.

Dünya bazarında taxılın qiymətinin artmasının əsas səbəbi Ukrayna ilə Rusiya arasındakı müharibədir. Həm Ukrayna, həm də Rusiya regionun aparıcı taxıl ixracatçılarıdır. Eyni zamanda hər iki dövlət Azərbaycanın mühüm ticarət tərəfdaşlarıdır və respublikamıza taxıl ixrac edirlər. Rusiya ilə Ukrayna arasındakı müharibə, xüsusən, Ukraynanın qonşu dövlətlərlə ticarət əlaqələrinə, idxal-ixrac əməliyyatlarına təsirsiz ötüşməyib. Taxılla bağlı qıtlığın yaranması və qiymətlərin artması da bu səbəbdəndir.

Təbii ki, Azərbaycan hökuməti çətinliklərin olacağı ehtimalını nəzərə alaraq taxıl ehtiyatlarını artırır. Eyni zamanda daxili təminatın gücləndirilməsi məqsədilə digər tədbirlər də həyata keçirilir. Bu məqsədlə həm azad edilmiş torpaqlarda, həm də digər bölgələrdə əkin işlərinin daha genişmiqyaslı aparılması üçün göstərişlər verilib. O cümlədən asılılığımız olan məhsullar üzrə idxalın sadələşdirilməsi tətbiq olunur.

Müşavirədə qeyd olunduğu kimi, bu gün respublikamızda əsas ərzaq məhsulları üzrə kifayət qədər ehtiyatlar var. Eyni zamanda məhsulun, əsasən də, minimum istehlak bazarına daxil olan, əhali tərəfindən gündəlik istifadə edilən məhsulların həm qiymət, həm də ehtiyatlar baxımından hər gün monitorinqi aparılır.

### Proseslər ciddi nəzarətdədir

Təəssüf ki, indiki şəraitdə qiymətlərin süni artımı da baş verir. Bəzi işbazlar vəziyyətdən istifadə edərək möhtəkirliyə yol verirlər. Prezident İlham Əliyev bu məsələyə də toxunaraq dedi: "Üç ayda əhalinin gəlirləri təxminən 20 faiz artıb və əgər biz inflyasiyanı əhalinin gəlirləri ilə müqayisə etsək, burada yenə də real gəlirlər artmış olur. Ancaq o demək deyil ki, biz buna laqeyd yanaşmalıyıq. Ona görə antiinflyasiya tədbirlərinin görülməsi, gücləndirilməsi zəruridir. Əlbəttə ki, burada əsas məsələ süni qiymət artımının qarşısının alınmasıdır. Çünki belə hadisələrdə, belə geosiyasi vəziyyətdə bəzi natəmiz sahibkarlar bundan istifadə etməyə çalışırlar və heç bir əsas olmadan qiymətləri artırırlar. Buna xüsusi diqqət göstərilməlidir".

Xatırladaq ki, hələ bir neçə il əvvəl manatın devalvasiyası baş verəndə bir çox məhsulların qiymətlərində işbazlar tərəfindən spekulyasiyaya yol verilməsi və əlavə dividend əldə etmək meyilləri özünü büruzə vermişdi. Bəzi işbazlar o zaman yaranan vəziyyətdən sui-istifadə edərək qiymətlərin süni şişirdilməsi hesabına daha çox qazanc götürməyə cəhd göstərmişdilər. Xüsusən xarici ölkələrlə bağlılığı olmayan məhsulların qiymətində artım halları vəziyyətdən sui-istifadə edərək əlavə gəlir qazanmağa çalışanların möhtəkirliyinin nəticəsi idi. Həmin vaxt süni bahalaşmanın qarşısının alınması üçün ciddi tədbirlər görülmüşdü.

Bu gün də respublikamızda sosial-iqtisadi inkişaf strategiyasından irəli gələrək daxili bazarda qiymət manipulyasiyası üzərində nəzarətin gücləndirilməsi, qlobal ərzaq bazarlarında bahalaşmanın ölkənin ərzaq təminatına mənfi təsirinin qarşısının alınması prioritet vəzifələr sırasında yer alır. Onu da qeyd edək ki, ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlığını təmin etmək və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq və ərzaq təhlükəsizliyinin təmini istiqamətində tədbirlər görülməsi məqsədilə Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi yaradılıb.

Hazırda ərzaq məhsulları üzrə qiymətlərin artımı bütün dünyanı çənginə almış bir problemdir. Lakin Azərbaycan dövləti bu neqativ prosesdən vətəndaşları qorumaq, əhalinin sosial müdafiəsini gücləndirmək üçün bütün addımları atır. Bu gün də bütün proseslər dövlətin ciddi nəzarətindədir və süni qiymət artımına yol verənlər qanunların sərt üzü ilə qarşılaşacaqlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# "Şuşa ili"nə parlament töhfəsi

Şuşa...
Qədim və əsrarəngiz şəhər...
Dağların qoynunda, sıldırımlar üzərində inşa edilmiş qızılbürclü qəsr...
Qəhrəmanlığın, zəfərin, qürurun rəmz qalası...

Bu qədim və əfsanəvi Azərbaycan şəhəri hər zaman yağılar üçün alınmaz qala, keçilməz sədd olub. Elə buna görədir ki, şəhərə sahibləndiklərini zənn edən erməni işğalçıları da Şuşanı "qələbə"lərinin rəmzi sayaraq işğalda saxladıqları 28 il ərzində orada möhkəmlənməyə, bu şəhərə yiyələnməyə çalışıblar. Erməni mənfurlarının saxta parlament yaratmaq və Şuşada parlament binası tikmək kimi gülünc və quduz iştahları da elə bu məkrli hisslərindən qaynaqlanıb. Amma 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan parlaq zəfər sayəsində saxta erməni parlamenti də, onun qondarma binası da cəhənnəmə vasil oldu.

İndi azad Şuşada üçrəngli Azərbaycan bayrağı dalğalanır. Qarabağımızın büllur sarayı dirçəlir, tarixi əzəmətinə qovuşur. Şuşada gerçəkləşən mühüm tarixi və düşmənə böyük zərbə olan hadisələrdən biri isə ölkəmizin Ali Qanunverici Orqanı - Milli Məclisin komitə iclasının ilk dəfə mədəniyyət paytaxtımızda keçirilməsi oldu...

## Şuşa hər bir azərbaycanlını özünə çəkir

"Şuşa hər birimizi özünə çəkir. Düzdür, mən burada - Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim. O tədbirlər ki, Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olduğunu bir daha təsdiqləyir. Amma eyni zamanda hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada - Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm". 2021-ci il dekabrın 24-də Prezident İlham Əliyev 60 illik yubileyini qalib sərkərdə, Müzəffər Ali Baş Komandan kimi zəfərimizin qürur zirvəsi olan Şuşada qeyd etdiyi zaman Cıdır düzündən səsləndirdi bu qürurverici fikirləri.

Vətən müharibəsində Silahlı Qüvvələrin Ali Baş Komandanı olaraq "Şuşasız bizim işimiz yarımçıq olar", - deyə ordumuza qətiyyətli savaş parolu verərək hədəfi düzgün istiqamətləndirən İlham Əliyev 8 noyabrda qazanılan parlaq Zəfərdən sonra qurucu lider kimi azadlığına qovuşdurulan torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işlərinə start verdi. Xüsusilə Qarabağın baş tacı, hər bir azərbaycanlının mənəvi paytaxtı olan Şuşanın tarixi əzəmətinin, mədəni ruhunun özünə qaytarılması istiqamətində nəhəng layihələrin icrasına başlanıldı.

## Şuşa tarixi günlərini yaşayır

Təsadüfi deyil ki, ötən il, işğaldan azad edilən torpaqlara 32 dəfə səfər edən İlham Əliyev düz 7 dəfə yolunu Şuşa şəhərindən saldı, mədəniyyət paytaxtımızda aparılan kompleks işlərin gedişatı ilə şəxsən tanış oldu. Dövlət başçısının hər gəlişində xalqımız, eləcə də bütün dünya mənfur erməni vandalları tərəfindən 30 il ərzində viran qoyulan şəhərimizin necə möcüzəvi sürətlə dirçəldiyinin, simasının dəyişdiyinin şahidi oldu.

İndi azadlığına qovuşan əzəli və əbədi yurdumuz Şuşa tarixi günlərini yaşayır, mötəbər tədbirlərə evsahibliyi edir. Prezident İlham Əliyev tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada illərdən sonra "Xarıbülbül" Musiqi Festivalı, Vaqifin bərpa olunan əzəmətli mavzoleyinin qarşısında "Vaqif Poeziya Günləri" keçirildi. Bu il qala şəhərimizin yaradılmasının 270 illiyi təntənəli şəkildə qeyd olunacaq. 2023-cü ildə isə ümumilikdə türk dünyasının qürur mənbəyi olan Şuşa "Türk Dünyasının Mədəniyyət Paytaxtı" kimi mədəni irsinin möhtəşəmliyi ilə bir daha qürurlanacaq.

## Şuşada Milli Məclisin ilk komitə iclası keçirilib

Bu il aprelin 8-də Azərbaycanın ali qanunverici orqanı olan Milli Məclisin Şuşada ilk dəfə Hüquq siyasəti və dövlət quruculuğu və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin birgə iclası keçirildi. Azərbaycan parlamentinin komitə iclasının Şuşada keçirilməsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi zəfərin möhtəşəm nəticələrindəndir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının vacib göstəricilərindən biri kimi mühüm siyasi əhəmiyyət kəsb edən bu tədbir, həm də illərdir torpaqlarımıza göz dikən işğalçılara böyük zərbə oldu. Çünki erməni mənfurlarının saxta parlament yaratmaq və Şuşada parlament binası tikmək kimi quduz iştahları Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm qələbə sayəsində məhv oldu, işğalçıların 30 il ərzində özləri üçün qurduqları xəyal dünyaları darmadağın olaraq başlarına uçdu.

## Şuşa şəhərində keçiriləcək növbəti komitə iclaslarının da qrafiki tərtib olunub

Parlamentin 12 aprel tarixli iclasında çıxışı zamanı Milli Məclisin Sədri Sahibə Qafarova komitə iclaslarının Şuşa şəhərində keçirilməsinin Prezidentin sərəncamı ilə elan edilmiş "Şuşa ili"nə töhfə vermək niyyəti ilə bağlı olduğunu bildirdi. Sədr onu da diqqətə çatdırdı ki, Milli Məclisin komitələrinin Şuşa şəhərində keçiriləcək iclaslarının qrafiki artıq tərtib olunub və komitə sədrlərinə təqdim ediləcək.

Qarabağın, Şuşanın əzəli sahibləri doğma yurdlarına qayıdıblar. Tarixi torpaqlarını hər ötən gün əvvəlki şanına və şöhrətinə qaytarırlar, dağıdılmış abidələrini, mədəni irslərini bərpa edirlər. Şuşada artıq bir çox dövlət qurumları uğurla fəaliyyət göstərir. Eyni zamanda qalib xalq olaraq Azərbaycan parlamentinin tarixində ilk dəfə olaraq Milli Məclisin komitə iclası azad Şuşada keçirildi. Bu, böyük tarixi hadisə olmaqla yanaşı, hər bir azərbaycanlı üçün qürurdur. Həm də onun göstəricisidir ki, doğma Şuşamız 28 il yarım davam edən işğal dövründə də heç vaxt yadları qəbul etmədi, sınmadı, əyilmədi. Hər daşına, ağacına, küçəsinə, məhəlləsinə, abidəsinə əbədi qovuşmuş azərbaycançılıq ruhunu yaşatdı və bu günümüzə, sabahımıza ötürdü.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında elmi-praktik konfrans keçirilib

Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının yaranmasının 30 illik yubileyinə həsr olunmuş "Şəkərli diabet xəstəliyi, müasir yanaşma" mövzusunda elmi-praktik konfrans keçirilib.



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, eləcə də Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Elmi-praktik konfransın proqramına əsasən, "Şəkərli diabet xəstəliyinin epidemiologiyası, etiologiyası, klinika və diaqnostikası" mövzusunda məruzələr dinlənilib.

Sonra Heydər Əliyev Fondu tərəfindən şəkərli diabetə qarşı mübarizədən, bu istiqamətdə görülən işlərdən, habelə xəstəlikdən əziyyət çəkən aztəminatlı ailələrə fondun dəstəyindən bəhs edən videoçarx təqdim olunub.

Sonda məruzələrə dair ətraflı fikir mübadiləsi aparılıb, konfrans iştirakçılarının sualları cavablandırılıb.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə 193 mindən çox e-arayış verilib

Bu ilin yanvar-mart aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə 193 min 86 elektron arayış verilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, son illərdə əmək, məşğulluq, sosial təminat, əlillik, reabilitasiya və s. sahələr üzrə elektronlaşma proqramı çərçivəsində 30 elektron arayış növü istifadəyə verilib. Bu e-xidmətlər vətəndaşların iş yerinə və ya əlilliyə dair, pensiya, müavinət və təqaüd, maddi yardım, ünvanlı yardım, dövlət tərəfindən mənzil və avtomobillə təmin edilmə, fərdi şəxsi hesab və s. barədə e-qaydada arayış əldə etməyə imkan verir.

Hazırda nazirliyin e-sistemlərinin 31 qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Həmin qurumlar tərəfindən ilin birinci rübündə nazirliyin informasiya bazalarına edilən sorğuların sayı 55 milyon 446 min 674 olub.

**Jurnalist araşdırması**

# Genofondu məhv edən qidalar

## Geni motifikasiya olunmuş məhsullar yeni və daha təhlükəli xəstəliklər yaradır

**Qida məhsullarının bahalaşması, ərzaq qıtlığı, təhlükəli qida məhsulları son illər qlobal problemlərdən biri hesab olunur. Eyni zamanda dünya əhalisinin sayının çoxalması qeyri-bərabərliyin, aclıqdan əziyyət çəkən insanların artımına səbəb olur.**




Müasir dövrdə və gələcək problemləri nəzərə alaraq ərzaq çatışmazlığının qarşısının alınması üçün alimlər tərəfindən irəli sürülən təklif biotexnoloji metodlardan istifadə edərək genetik modifikasiya olunmuş məhsulların (GMO) istehsalından ibarətdir. Odur ki, son illərdə geni dəyişdirilmiş orqanizmlərin (GDO) sürətlə artdığı, yediyimiz qidaların əksəriyyətinin GDO olduğu qeyd olunur. Belə məhsulların yetişdirilməsi təbii məhsullardan daha ucuz başa gəldiyi üçün bu üsullara əl atılır. Geni modifikasiya olunmuş orqanizmlərin ətraf mühitin mənfi təsirlərinə davamlı, məhsuldar, xəstəliklərə, həşəratlara qarşı güclü olduğu qeyd olunur.

Bununla belə, GMO-lu məhsullara yanaşma birmənalı qarşılanmır. Belə məhsulların insan orqanizmində müxtəlif fəsadlara yol açdığı, zamanla müxtəlif xəstəlikləri meydana çıxardığı qeyd edilir. Hazırda insanlarda müəyyən xəstəliklərin sayındakı artımlar, yeni xəstəliklərin meydana çıxması qəbul etdiyimiz qidalarla daha çox əlaqələndirilir.

### GMO-lu kənd təsərrüfatı bitki materiallarının ölkəyə idxalı qadağandır

Hazırda qanunvericiliyə əsasən, Azərbaycan Respublikasında genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının istehsalı, dövriyyəsi, rayonlaşdırılması, ölkəyə gətirilməsi, dövlət reyestrinə daxil edilməsi qadağandır.

Ölkə daxilində genetik modifikasiya olunmuş bitkilərin mövcudluğu və yayılma zonası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydaya uyğun aşkarlanır, bu bitkilərdən yarana biləcək təhlükənin təyin edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir. Azərbaycan Respublikasına idxal olunan bütün genetik materialların ölkənin gömrük sərhədindən keçirilərkən genetik modifikasiyaya məruz qalıb-qalmaması yoxlanılır və genetik modifikasiya olunmuş materialların hərəkətinə qanuna uyğun qaydada icazə verilmir.

### Yeni qanun layihəsi nəyi nəzərdə tutur?

Milli Məclisdə müzakirələri davam edən "Qida təhlükəsizliyi haqqında" yeni qanun layihəsinə əsasən genetik modifikasiya olunmuş orqanizmlərə və yem məhsullarına dair yeni tələblər müəyyən edilir.

Layihədə bildirilir ki, Azərbaycan Respublikası ərazisində siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən yem üçün istifadəsi nəzərdə tutulan genetik modifikasiya olunmuş orqanizmlərin, habelə yalnız genetik modifikasiya olunmuş orqanizmlərdən ibarət olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlər olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlərdən əldə edilmiş məhsul olan yem məhsullarının istehsalına, emalına və dövriyyəsinə həmin məhsullar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qeydiyyata alındıqdan sonra icazə verilir.

Bu qanunun 25.8-ci maddəsində nəzərdə tutulmuş qaydada qeydiyyatdan keçməmiş yem üçün istifadəsi nəzərdə tutulan genetik modifikasiya olunmuş orqanizmlərin, habelə yalnız genetik modifikasiya olunmuş orqanizmlərdən ibarət olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlər olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlərdən əldə edilmiş məhsul olan yem məhsullarının istehsalı, emalı və dövriyyəsi qadağandır.

Layihəyə əsasən, ölkə ərazisində yem üçün istifadəsi nəzərdə tutulan genetik modifikasiya olunmuş orqanizmlərin, habelə yalnız genetik modifikasiya olunmuş orqanizmlərdən ibarət olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlər olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlərdən əldə edilmiş məhsul olan yem məhsullarının ilkin istehsalı qadağandır. Genetik modifikasiya olunmuş orqanizmlər və yem məhsullarının qeydiyyata alınması üçün həyat və sağlamlığa zərərli olmamalı, istehlak xüsusiyyətləri ilə bağlı istifadəçiləri aldatmamalı, heyvanların normal qidalanması üçün əvəz etdiyi məhsullardakı zəruri inqrediyentlərə malik olmalıdır.

### Genofondumuz risk altındadır

Qida üzrə mütəxəssis Ağa Salamov qəzetimizə açıqlamasında bildirir ki, genlərimiz yediyimiz qidalardan təsirlənir. Bu da xromosomlara təsir edir, çünki xromosomlarda da gen sayları az deyil. Gələcəkdə isə insanların mutasiyaya, yəni ürək qüsurlu, şəkərli diabet, xərçəng şişi ilə doğulmasına səbəb ola bilər.

İnsan doğulduğu mühitdə bitən orqanizmləri istehlak etməlidir. Mütəxəssis qeyd edir ki, bədənin bəzi fundamental proseslərini modelləşdirmək üçün maya üzərində aparılan tədqiqatlar genlərimizin fəaliyyətinin maddələr mübadiləmizə təsir etdiyi kimi, bunun əksinin də mümkün olduğu, yəni hüceyrələr üçün mövcud olan qidaların da genlərimizə təsir etdiyini göstərir. Həkimin sözlərinə görə, bir çox hallarda təsirlərin gücündən hüceyrələrin metabolik profilinin dəyişdirilməsi onun bəzi genlərinin tamamilə fərqli şəkildə davranmasına səbəb olur: "Genləri aktiv etmək, söndürmək açar rolunu oynayan DNT-yə birləşdirilmiş kiçik molekullar tərəfindən tənzimlənir. Belə nəticəyə gəlirik ki, genlərimizi aktivləşdirə və passivləşdirə bilərik. Məsələn, biz Afrikadan gətirilmiş, geni dəyişdirilmiş bananı yeyiriksə, demək bizim orqanizmimizdə bananın geni aktivləşir. Biz yerli məhsuldan imtina ediriksə, həmən yerli məhsulun gen kodunu passivləşdiririk, yəni söndürürük. Onun əvəzinə hibrid adı ilə maskalanmış GMO olan, xarici ölkədən gətirilən məhsulu qəbul edirik. Bu da mutasiyaya səbəb olur, çünki biz onu genlərimizdə aktivləşdiririk".

### Hibrid məhsulların da idxalı dayandırılmalıdır

Həkimin sözlərinə görə, belə qidaların gələcəkdə hansı fəsadlara yol açacağı bilinmir. Hesablamalara əsasən, mutasiyalar şəkər xəstəliklərini çoxaldır: "Körpələrin hansı xəstəliklərlə dünyaya gələcəyi və ya insanları hansı fəsadların gözlədiyi ilə bağlı heç kim sığortalanmayıb. O məhsullara zəmanət verilmir. Elmi araşdırmalar da göstərir ki, hər bir insan öz coğrafiyasında bitən orqanik məhsulları istehlak etməlidir. Yaxşı olar ki, orqanik məhsullara üstünlük verilsin, çünki GMO birbaşa genofondumuzu məhv edir. Belə qidaların xromosomlarda olan genlərə təsirini elm də sübut edir".

Həkim deyir ki, dövlətlər artıq öz məhsulunu digər ölkələrə satmaq və ya digər ölkədən məhsul almaq istəmir, sanki ayılıblar. Yeni qanun layihəsinə görə, AQTA tərəfindən ölkəyə GMO yemlər gətirilməsi düşünülür. GMO yemi yeyən heyvanın əti ilə qidalanan insanın xromosomlarına hansı təsir edəcəyinə, onların dünyaya gətirdiyi uşaqların da mutasiyaya uğrayıb hər hansı xəstəliklə doğulmayacağına kim zəmanət verə bilər?

Ümumiyyətlə, həkimlər hesab edirlər ki, kənardan gələn heç bir məhsulun faydası yoxdur. Azərbaycan coğrafiyasında bitən, yetişdirilən məhsullarla qidalanmaq lazımdır. Kənardan GMO-nun idxalı, yem belə olsa qadağan edilməlidir. GMO ilə yanaşı, hibrid məhsulların da idxalı dayandırılmalıdır.

Kembric Universitetində və Londondakı Francis Crick İnstitutunda professor Markus Ralserin rəhbərlik etdiyi beynəlxalq tədqiqatçılar qrupu hüceyrənin ən əsas funksionallığında maddələr mübadiləsinin rolunu araşdırıblar. Maya hüceyrələrindən istifadə edərək aparılan araşdırmada mühüm metabolitlərin - metabolik reaksiyaların məhsullarının səviyyələrini manipulyasiya edərək bunun genlər və onların istehsal etdikləri molekulların davranışına necə təsir etdiyi öyrənilib. Demək olar ki, on gendən doqquzu və onların məhsulları hüceyrə metabolizmindəki dəyişikliklərdən təsirlənib. Maya böyükmiqyaslı təcrübələr üçün ideal model orqanizmdir, onun manipulyasiyası heyvan modellərinə nisbətən daha asandır, lakin onun bir çox mühüm genləri və əsas hüceyrə mexanizmləri heyvan və insanlarda olanlarla eyni və ya çox oxşardır.

M.Ralser izah edir ki, hüceyrə metabolizmi hüceyrələrdə əvvəllər düşündüyümüzdən daha dinamik rol oynayır. Hüceyrənin demək olar ki, bütün genləri onların əldə edə bildikləri qida maddələrindəki dəyişikliklərdən təsirlənir. Əslində, bir çox hallarda təsirlər o qədər güclü olur ki, hüceyrənin metabolik profilinin dəyişdirilməsi onun bəzi genlərinin tamamilə fərqli şəkildə davranmasına səbəb olur.

Ağa Salamov deyir ki, Azərbaycan qanunvericiliyinə görə, GMO məhsulların ölkəyə idxalı birmənalı olaraq qadağandır, amma biz hibrid məhsullar adı altında GMO məhsulların satışına rast gəlirik. Başqa ölkədən gələn limon, xiyar, pomidor kimi bir çox meyvə və tərəvəzlər genofondumuzu məhv edir. Bu məhsullar yığışdırılmalı, bizim əkin sahələrimizdə əkilib becərilənlər satışa çıxarılmalıdır. Bu iqtisadi tərəfdən də ölkəyə xeyirdir, valyutamız ölkədə qalar. Xaricdən gələn məhsullar valyutamızın ölkədən axınına səbəb olur. GMO məhsulların sayı çoxdur. Heyvan yemlərində də GMO məhsullara rast gəlinir. Hibrid adı altında yemləri heyvanlara verirlər, bu da geni dəyişdirilmiş bitkilərlə heyvanları yemləməkdir. Həmin qidaların qəbulu heyvanlar vasitəsilə insanlara zərər verir.

### GMO-nun lobbiçiliyini aparanlar var

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov qəzetimizə bildirib ki, genetik modifikasiya olunmuş orqanizmlərin ölkəyə idxalının məhdudlaşdırılması və qadağan edilməsi barədə ölkə Prezidentinin çox əhəmiyyətli qərarları və fərmanları var. Təsadüfi deyil ki, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması ərəfəsində "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" qanun qəbul olundu. Həmin qanunda qeyd olunur ki, GMO elementləri olan mallar ekoloji təmiz mallar hesab olunmur. Həmçinin ekoloji təmiz olmayan GMO malların markalanması da qanunda əksini tapıb. Eləcə də Azərbaycan GMO-nun məhdudlaşdırılması və istifadəsinə dair 153 ölkənin də qoşulduğu "Kartagen protokulu"nu ratifikasiya edib. GMO istehsalçısı olan və dünyada həqiqət, düzlükdən, ekologiyadan danışan ABŞ isə bu protokulu imzalamayıb.

Eyyub Hüseynov qeyd edir ki, Azərbaycan həm də ətraf mühitin mühafizəsi sahəsində BMT-nin "Bioloji müxtəliflik haqqında" Konvensiyasına qoşulub. Bütün bunlar onu göstərir ki, dövlət, ölkə Prezidenti səviyyəsində GMO-nun məhdudlaşdırılması üçün ciddi tapşırıqlar var. Lakin bununla belə, Azərbaycanda bir çox ölkələrdə olduğu kimi, GMO-nun lobbiçiliyini aparanlar var. AİB 12 il əvvəl Avropa İttifaqının maliyyələşdirdiyi 7 ölkədə keçirilən və GMO-nun məhdudlaşdırılmasına dair dünyada gedən işlərlə bağlı layihənin Azərbaycan nümayəndəsi olub: "GMO qidalar insan üçün zərərlidir. Elmi təcrübələr göstərir ki, belə məhsullar nəsilartırma qabiliyyətini azaldır, xəstəliklərin artmasına səbəb olur. Lakin türkiyəli alimin də dediyi kimi, dünyanı aldatmaq üçün pula satılmış 20 alim tapmaq kifayətdir".

AİB sədri bildirir ki, GMO tərəfdarı olan alimlər də var. Onun sözlərinə görə, geni dəyişdirilmiş orqanizm istehsalçıları özlərinə haqq qazandırmaq üçün iki tezislə çıxış edirlər. Birincisi, bəşəriyyəti aclıqdan xilas etdiklərini deyirlər, ikincisi isə genetik modifikasiya olunmuş orqanizmlərin hibrid olduğunu bildirirlər. Yəni hibrid adı altında bir çox ölkələrdən GMO yayılır: "Qida təhlükəsizliyi haqqında" qanun layihəsinin müzakirəsi zamanı çıxış etmiş Milli Məclisin komitə sədri Siyavuş Novruzovun fikirləri ilə tam razıyam. O, açıq şəkildə dedi ki, ölkədə GMO əkinçiliyi var, ölkəyə geni modifikasiya olunmuş bitki və toxumlar gətirilir, çünki ölkədə neçə ildir soya əkinçiliyi var".

### AQTA Prezidentin imzaladığı fərmanlara uyğun iş qurmalıdır

Eyyub Hüseynov hesab edir ki, ölkəyə gətirilən GMO məhsulların calaq və digər texnologiyalarla əldə olunmuş hibrid adı altında ölkəyə idxal olunur. Amerikanın böyük qida istehsalçısı "Monsanto" şirkətinin istehsal etdiyi və Azərbaycanda satılan "Raund-up" herbisidi var.

Bu herbisid GMO bitkiləri alaq otlarından müdafiə etmək üçün istifadə olunur. Əgər bu herbisid Azərbaycanda satılırsa, bu o deməkdir ki, ölkədə GMO əkinçiliyi də var: "Dənizin duzlu olduğunu bilmək üçün onun suyunun hamısını içməyə ehtiyac yoxdur. AQTA tələb edir ki, biz dəniz suyunu içək, ondan sonra bunu sübut edək. İctimai Şuranın iclasında tələb etdilər ki, "Qida təhlükəsizliyi haqqında" qanun layihəsinin 13.1 maddəsində nəzərdə tutulan - heyvanlar genetik modifikasiya olunmuş orqanizmlərlə yemlənərsə, onların insanlara zərər yetirə bildiyini sübut edər. AQTA hər vəchlə isbat etməyə çalışır ki, heyvanlara GMO yemləri yedizdirilərsə, onların insana heç bir zərəri olmaz. Bu, doğru mövqe deyil. AQTA cənab Prezidentin GMO-nun məhdudlaşdırılmasına dair verdiyi, Azərbaycanın flora və faunasını qoruyan, istehlakçıların həyatını təhlükədən xilas edən fərmanlara uyğun iş qurmalıdır. Əgər bu qanun layihəsi qəbul olunarsa, o zaman qanuna genetik modifikasiya olunmuş orqanizmlərlə yemləndirilən heyvan və quşların südündən, ətindən alınan mal olduğunun məhsulun üzərinə yazılması ilə bağlı maddə əlavə olunmalıdır. Qeyd olunmalıdır ki, bu, təsərrüfat GMO yemçiliklə təchiz olunub. Qoy, istehlakçının seçim hüququ olsun".

E.Hüseynovun sözlərinə görə, qanun layihəsində yalnız heyvan yemlərinin idxalından söhbət gedir, lakin ölkədə toxumdan cücərti verməyən qarpız, soğan əkilir. ABŞ istehsalı olan "amerikanka" qarpızı Azərbaycanda neçə ildir ki, yetişdirilir, istiyə və soyuğa davamlı, bol məhsul verən, həşəratlara qarşı davamlıdır. Onun toxumunun 1 kiloqramı 3 min manatdır. Yəni toxum sənayesi ABŞ şirkətinin əlində cəmlənir: "Biz ölkədə olan fauna, floranın qorunmasının və Azərbaycanın qədim bitkilərinin hamısının yetişdirilməsinin tərəfdarıyıq. AQTA-da olan laboratoriya isə partizan və ya balıq kimi susur".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Sənaye məhsulları istehsalı 3,9 faiz artmışdır

**Ölkə üzrə cari ilin yanvar-mart aylarında 20,6 milyard manatlıq və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz çox sənaye məhsulları istehsal edilmişdir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, neft-qaz sektorunda məhsul istehsalı 1,1, qeyri neft-qaz sektorunda isə 18,1 faiz artmışdır. Sənaye məhsullarının 73,7 faizi mədənçıxarma, 21,6 faizi emal, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,5 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 5,4 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 16,4 faiz artmışdır.

## Əsas kapitala 2,4 milyard manatdan çox vəsait yönəldilmişdir

**Bu ilin yanvar-mart aylarında əsas kapitala 2 milyard 440,7 milyon manat məbləğində, yaxud 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz az vəsait yönəldilmişdir.**

Dövlət Statistika Komitəsi məlumat verir ki, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 28,0 faiz azalmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 10,1 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 1 milyard 524,7 milyon manatı (62,5 faizi) məhsul istehsalı, 743,2 milyon manatı (30,4 faizi) xidmət sahələrinə, 172,8 milyon manatı (7,1 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 1 milyard 676,7 milyon manatını (68,7 faizini) daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 1 milyard 688,2 milyon manatı (69,2 faizi) bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 61,8, büdcə vəsaitləri 24,6, əhalinin şəxsi vəsaitləri 8,1, sair vəsaitlər 3,8, bank kreditləri isə 1,7 faiz təşkil etmişdir.

## İqtisadi sektorda 1,6 milyon nəfər çalışır

**Dövlət Statistika Komitəsinin açıqlamasına görə, 2022-ci il martın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 3,6 min nəfər və ya 0,2 faiz artaraq 1 milyon 682,1 min nəfər olmuşdur.**

Onlardan 902,5 min nəfəri iqtisadiyyatın dövlət, 779,6 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 19,8 faizi təhsil, 18,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,7 faizi sənaye, 8,1 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,0 faizi tikinti, 6,7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,9 faizi maliyyə və sığorta fəaliyyəti, 13,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Cari ilin yanvar-fevral aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,0 faiz artaraq 768,3 manata çatmışdır.

**Azərbaycanda əhalinin məşğulluğunun təmin edilməsi daim diqqət mərkəzində olan məsələdir. Bu, Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin, eləcə də həyata keçirilən sosial islahatların ayrılmaz hissəsini təşkil edir. Əmək qabiliyyətli insanların işlə təmin edilməsi üçün yeni yollar axtarılır, məşğulluğun yeni formaları tapılır, bu məqsədlə daxili ehtiyat mənbələrindən geniş istifadə olunur.**



## Özünüməşğulluq özünə geniş yer alır

### Prezidentin tapşırığı ilə bu proqramın icrası zamanı şəhid ailələrinə və qazilərə üstünlük verilir

Son illərdə vətəndaşların işlə təmin olunması istiqamətində atılan önəmli addımlardan biri də özünüməşğulluqdur. Təqdirəlayiq haldır ki, özünüməşğulluq proqramı həyata keçirilərkən şəhid ailəsi üzvlərinə və müharibə əlillərinə üstünlük verilir. Bu, cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə də qeyd edilib. Onların məşğulluğuna dəstək tədbirlərindən bəhs olunarkən həmin məsələ bir daha vurğulanıb. Belə ki, işlə təmin edilən şəhid ailəsi üzvləri və müharibə əlillərinin 50 faizi məhz məşğulluğun bu formasına cəlb olunub: "Bu çərçivədə 11 min şəhid ailəsi üzvü və müharibə əlilinə məşğulluq tədbirləri görülmüşdür. Onların yarısı özünüməşğulluq proqramlarına cəlb edilmiş və bu çərçivədə onlara kiçik ailə təsərrüfatının qurulması imkanı yaradılmışdır. Digər bir istiqamət isə işədüzəltmə, münasib işlə təminetmə proqramı olmuşdur ki, burada da məşğulluq marafonu çərçivəsində, xüsusilə sahibkarlarımızın bu proqrama aktiv qoşulması nəticəsində yaradılmış vakansiyalara iki mindən artıq şəhid ailəsi üzvü və müharibə əlilləri cəlb edilmişdir".

Azərbaycan Respublikasının "Məşğulluq haqqında" qanununda qeyd olunduğu kimi, özünüməşğulluq şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsi deməkdir. Aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Bu proqram Prezidentin 7 aprel 2016-cı il tarixli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamına əsasən həyata keçirilir. Proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə (nağd vəsait olmamaq şərti ilə) dəstək göstərilir. Ailə təqdim etdiyi biznes plana uyğun olaraq istehsal və ya xidmət avadanlıqları ilə təmin olunur. Bu, dövlət özünüməşğulluq proqramını digər ölkələrdəki təcrübədən fərqləndirən cəhətdir.

Özünüməşğulluq vətəndaşlar üçün əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur, bunun sayəsində də insanlar müəyyən iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə. Bu proqram insanların dolanışığını yaxşılaşdırmaqla yanaşı, iqtisadi inkişafa təkan verir.

Özünüməşğulluq proqramı həmçinin alternativ sosial müdafiə tədbirləri ilə müqayisədə əhəmiyyətli üstünlükləri ilə fərqlənir. Çünki bu proqram eyni vaxta bir neçə makro məqsədlər istiqamətində paralel nəticələrin əldə edilməsinə imkan yaradır. Ümumilikdə isə özünüməşğulluq proqramının üstün tərəfləri çoxdur və onları qruplaşdırmaq olar.

Beləliklə, özünüməşğulluq ailə büdcəsinin dayanıqlı gəlir mənbələri hesabına formalaşmasına xidmət edir. O, eyni zamanda mikro və kiçik sahibkarlığı inkişaf etdirir. Nəticədə yeni iş yerləri yaradılır və işsizliyin səviyyəsi azaldılır. İctimai vəsaitlərin (dövlət vəsaitləri) xərclənməsində səmərəlilik artır. Yoxsulluq səviyyəsi enir. İqtisadiyyatın inklüzivliliyi güclənir.

Özünüməşğulluğun təşkili tədbirinin həyata keçirilməsinin əsas məqsədi əhalinin sosial cəhətdən həssas təbəqəsinin, xüsusilə aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi və həyat səviyyəsinin yüksəldilməsi üçün ənənəvi "passiv" siyasət tədbirlərindən (müavinət və yardımların verilməsi) "aktiv" siyasət tədbirlərinə (sosial cəhətdən həssas əhali qruplarının əmək bazarında məşğulluğunun, o cümlədən özünüməşğulluğun təmin olunmasına dəstək) keçiddir.

Özünüməşğulluq fəaliyyəti biznesin başlanması üçün istək, minimum bacarıqlar və biznes haqqında təsəvvürü olan əmək qabiliyyətli şəxslərin müstəqil surətdə özünü işlə təmin etməsidir. Məşğulluğun bu forması Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə işsiz kimi qeydiyyata alınmış şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi, əmək bazarında rəqabət qabiliyyətinin artırılması məqsədilə həyata keçirilir.

Tədbirlər bir neçə mərhələdən ibarət olur. Bunlar özünüməşğulluğun təşkili ilə bağlı məsləhətlərin və məlumatların verilməsini, əmək bazarının təhlili əsasında iqtisadiyyatın sahələri üzrə özünüməşğulluq istiqamətinin seçilməsinə və təşkilinə köməklik göstərilməsini əhatə edir. Özünüməşğulluğun təşkili üçün biznes planın hazırlanmasına kömək göstərilməsi, şəxslərə təlimlərin keçirilməsi və onların nəticələrinin qiymətləndirilməsi, seçilmiş özünüməşğulluq istiqamətinin təşkili üçün işsiz şəxslərə əmlakın bir il müddətinə müqavilə əsasında verilməsi və s. növbəti mərhələlərdir.

Özünüməşğulluğun təşkili zamanı şəhid ailəsi üzvləri və qazilərlə yanaşı, ünvanlı dövlət sosial yardımı alan, eləcə də əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, bir ildən artıq işsiz kimi qeydiyyatda olanlara, pensiya yaşına iki ildən az qalmış, cəzaçəkmə yerlərindən azad edilmiş işsiz insanlara üstünlük verilir.

2021-ci ildə 16 mindən çox şəxs özünüməşğulluq proqramına cəlb olunub ki, bu da proqramın icrasına başlanıldığı 2017-ci illə müqayisədə 13,8 dəfə çoxdur. Ümumilikdə son 4 ildə və cari ilin ilk rübündə 44 mindən çox şəxs özünüməşğulluq proqramına cəlb edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən özünüməşğulluq proqramı iştirakçılarına aktivlərin təqdim edilməsi prosesi davam edir. Bu ilin əvvəlindən proqram çərçivəsində daha 2300-ə yaxın işsiz və işaxtaran şəxsə mal və materiallar formasında aktivlər təqdim edilməklə onlar üçün kiçik bizneslər yaradılıb. Həmin vətəndaşların mühüm hissəsini şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları təşkil edirlər. Son aylarda daha 300-ə yaxın şəhid ailəsi və qaziyə mal və materiallar formasında aktivlər təqdim edilib. Verilmiş aktivlər hesabına onlar kiçik təsərrüfat və müəssisələrini yaradıblar.

Proqrama cəlb olunan şəxslər üçün əvvəlcə təlimlər təşkil olunur, onlara kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlar öyrədilir. Təlimləri uğurla başa vuran şəxslər seçdikləri özünüməşğulluq istiqaməti üzrə biznes planlarına uyğun aktivlərlə təmin olunurlar.

Bir sözlə, Azərbaycanda əhalinin rifah halının daha da yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır. Bunların da mühüm bir hissəsini yeni iş yerlərinin açılması, o cümlədən özünüməşğulluq təşkil edir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Taxıl idxalını azaltmaq üçün, ilk növbədə ərzaqlıq buğdanın istehsalı artırılmalıdır

### Prezident son müşavirədə bu məsələnin vacibliyini bir daha qeyd etdi



**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, son üç ildir ki, dünyada ərzaq məhsullarının qiyməti bahalaşır.**

Təşkilat bunu dünyada əhalinin sürətlə çoxalması sayəsində ərzağa olan tələbatın, iqlim dəyişikliyinin əkinçiliyə vurduğu ziyanın artması ilə əlaqələndirir. Ancaq indiki qlobal ərzaq böhranı və bahalaşma təkcə təbii səbəblərlə deyil, həm də siyasi məsələlərlə bağlıdır. Təsadüfi deyil ki, bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə də məhz ərzaq təhlükəsizliyi məsələsinə xüsusi olaraq toxunulub. Qeyd edilib ki, bu gün Azərbaycanda əsas ərzaq məhsulları ilə kifayət qədər ehtiyatımız var.

Prezident İlham Əliyev bu istiqamətdə, ilk növbədə ərzaqlıq buğdanın artırılmasının vacibliyini qeyd edib: "Əlbəttə ki, ehtiyatları yığmalıyıq. Çünki bizdə ümumi taxıl istehsalı ölkə tələbatının 60 faizini təşkil edir, ərzaqlıq buğda ilə isə biz özümüzü cəmi 25 faiz təmin edirik. Ona görə məsələ qoyulub ki, ərzaqlıq buğda ilə biz özümüzü ən azı 70-75 faiz təmin edək. Buna nail olmaq üçün potensial var, imkanlar var - həm azad olunmuş torpaqlarda, həm də ölkəmizin digər yerlərində. Həm bu il, həm gələn illərdə dövlət investisiya xərcləri artırılmalıdır. Eyni zamanda sahibkarlara məqsədyönlü kreditlər, güzəştli kreditlər verilməlidir ki, məhz bu sahə inkişaf etsin. Çünki buğda əsas ərzaq məhsuludur. Bizim həm coğrafi yerləşməyimiz, iqlimimiz, eyni zamanda bəzi yerlərdə torpağın keyfiyyəti və şərait imkan vermir ki, biz özümüzü bu gün buğda ilə 100 faiz təmin edək".

Rusiya-Ukrayna münaqişəsinin iki ölkə arasında hərbi toqquşmadan daha çox ikiyə bölünən dünya arasında gedən savaş olduğunun şahidiyik. Hazırda siyasi meydanda cərəyan edən hadisələr hərb meydanındakından daha gərgindir. Qarşılıqlı şəkildə tətbiq edilən sanksiyalar ənənəvi neft-qaz sahəsindən əlavə, ərzaq məhsullarına da sirayət etməyə başlayıb. Ərzaq məhsullarının bahalaşmasında və qıtlıq yaranmasında əsas səbəb sözügedən ölkələrin hər ikisinin iri ərzaq ixracatçısı olmasıdır. Belə ki, dünya bazarına buğda ixracının 30, arpa ixracının 31, günəbaxan yağının ixracının 32 faizi, həmçinin şəkər ixracının əhəmiyyətli hissəsi Rusiya ilə Ukraynanın payına düşür. Bu gün Ukrayna müharibə üzündən ərzaq məhsullarının ixracını tam həyata keçirə bilmir. Belə ki, cari ilin mart ayında bu ölkə 1,1 milyon ton qarğıdalı, 309 min ton buğda, 118 min ton günəbaxan yağı, 40 min ton soya məhsulları ixrac edə bilib. Bu isə cari ilin fevral ayı ilə müqayisədə həmin məhsulların 4 dəfə az ixrac edilməsi deməkdir.

Azərbaycan da Rusiyadan taxıl idxal edən ölkələrdəndir. Amma Rusiya cari ilin avqust ayına kimi buğda ixracını qadağan edib. Düzdür, Hindistan fürsətdən istifadə edib Rusiyanın ixrac bazarlarını ələ keçirmək istəyir ki, bu da bizim üçün bir variantdır. Ancaq ən yaxşısı bu sahədə başqasından asılı olmamaqdır.

Odur ki, indi ölkəmizdə taxıl istehsalçılarına daha diqqətlə yanaşılır. Onlara daha çox məhsul istehsalı üçün dövlət dəstəyi artırılıb. Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri indi daha tez-tez taxılçı fermerlərlə görüşür, onlara məsləhət verməklə yanaşı, qarşılaşdıqları problemlərin həllində yardımçı olurlar.

Payızlıq əkinlərin bəyanı prosesinin vaxtında həyata keçirilməsi arpa və buğda əkinlərinə görə subsidiyaların ilin əvvəlində verilməsinə imkan yaradır. Ötən ilin sonlarında nazirliyin yerli qurumlarla birlikdə bu istiqamətdə apardığı maarifləndirmə işləri öz müsbət nəticəsini verib. Belə ki, taxılçı fermerlərin mütləq əksəriyyəti öz əkinlərini vaxtında bəyan edərək subsidiya almaq üçün elektron müraciət ediblər. Aqrar Kredit və İnkişaf Agentliyi fevral ayından başlayaraq taxıla görə əkin subsidiyalarını fermerlərin kart hesablarına köçürməyə başlayıb. İndiki tarixə torpaq sənədlərində problem olmayan, öz sahələrindən aqrokimyəvi analiz vermiş və əkinlərini aqrar sığorta etdirmiş fermerlərin hamısı subsidiyalarını alıblar.

Ancaq bütün fermerlər bu imkandan istifadə edə bilmirlər. Subsidiyalarını ala bilməyən fermerlərin əksəriyyəti torpaq sənədləri natamam olanlardır. Ölkədə xeyli sayda fermerin torpaq üzərində mülkiyyət hüququnu təsdiqləyən sənədi yoxdur. Bu fermerlər indiyə kimi subsidiya almaq üçün yalnız plan-ölçü sənədləri ilə müraciət edirdilər. Plan-ölçü sənədləri isə torpaq üzərində mülkiyyət hüququnu təsdiqləyən sənəd hesab olunmur. Subsidiyaların verilməsi sisteminin elektronlaşdırılması prosesinin yeni başladığını nəzərə alaraq ötən illər ərzində bu kateqoriyadan olan fermerlərə güzəşt edilib ki, onlar plan-ölçü sənədləri əsasında subsidiya ala bilsinlər. Eyni zamanda fermerlərə növbəti mövsümədək müvafiq dövlət qurumuna müraciət edərək çıxarış almaq tövsiyə olunub.

Prezident İlham Əliyevin 7 oktyabr 2021-ci il tarixli fərmanına əsasən, vətəndaşlar plan-ölçü sənədlərini Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə təqdim edərək heç bir rüsum və xidmət haqqı ödəmədən mülkiyyət hüququnu təsdiqləyən sənəd (çıxarış) ala bilərlər. Əkinlərin bəyanı üçün ötən il dekabrın 30-dək çıxarış almamış vətəndaşların subsidiya almaq üçün elektron müraciəti formalaşmır. Buna baxmayaraq, Kənd Təsərrüfatı Nazirliyi həmin kateqoriyadan olan fermerlərə öz plan-ölçü sənədlərini çıxarışla dəyişərək subsidiya almaq üçün müraciət etmək tarixini mayın 31-dək uzadıb. Plan-ölçü sənədləri olan fermerlər o sənədləri müvafiq dövlət qurumuna müraciət edərək çıxarışla əvəzlədikdən sonra yeni sənədi Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə alt sənəd kimi daxil edə bilərlər. Yeni çıxarışları sistemə daxil edən fermerlərə iyun ayından başlayaraq 2021-2022-ci illər üzrə payızlıq əkinlərə görə subsidiya ödəniləcək.

Dövlət başçısı cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə vurğulayıb ki, buğda ilə təminat üçün zəruri tədbirlər görülməlidir və görülür: "Hər kəs yaxşı bilir ki, hazırda dünyada ərzaq məhsullarının qiymətləri kəskin artır. Bu proses bir neçə ay bundan əvvəl başlanmışdır. Əlbəttə ki, Rusiya-Ukrayna müharibəsi bunu daha da sürətləndirib, xüsusilə nəzərə alsaq ki, Rusiya və Ukrayna dünyada aparıcı taxıl ixracatçıları arasındadırlar və digər ərzaq məhsullarını dünya bazarına ixrac edirlər. İndi təbii qıtlıq hiss olunur və hiss olunacaq. Bizim ərzaqlıq buğda ilə təminatımız, əlbəttə ki, diqqət mərkəzində olmalıdır. Hökumətə bu məsələ ilə bağlı göstəriş verilmişdir. Operativ tədbirlər görülüb və ehtiyatlar yığılıb".

Artıq yeni mövsüm ərəfəsindəyik. Mayın sonlarından başlayaraq Azərbaycanda taxıl biçininə start veriləcək. Hazırda taxıl sahələrinə gübrə verilməsi prosesi davam edir. Sahələrdə aqrotexniki qulluq tədbirlərinin düzgün təşkili məhsuldarlığın artmasına təsir göstərən əsas amillərdəndir. Bu səbəbdən fermerlər sahələrə gübrə verən zaman normativlərə düzgün riayət etməlidirlər. Hazırda taxıl əkini sahələrində karbamid gübrəsindən daha geniş istifadə olunur. Karbamid gübrəsinin əvvəllər daha geniş istifadə olunan ammonium şorasından bir sıra üstün cəhətləri var. Karbamid gübrəsi bitkinin kollanma əmsalını artırır, eyni zamanda bitkinin yaşıl qalma müddətini uzadır. Bu isə nəticədə dənin daha yaxşı dolmasına, sünbülün yaxşı inkişaf etməsinə, keyfiyyət göstəricilərinin yüksəlməsinə səbəb olur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# Lənkəranda daha bir şəhidin xatirə bulağı açılıb





**Hirkan qəsəbəsində 2016-cı ilin Aprel döyüşlərində şəhid olmuş Rusif İbrahim oğlu Ağayevin xatirəsinə tikilmiş bulaq-abidə kompleksinin açılış mərasimi keçirilib. Tədbirdə yerli icra strukturlarının rəhbərləri, şəhid ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Mərasimdə çıxış edən Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşov Aprel döyüşlərinin Ali Baş Komandan İlham Əliyevin mahir sərkərdəlik bacarığı ilə Azərbaycan Milli Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi zəfərin əsasını qoyduğunu bildirib. Natiq igid əsgərlərimizin bu döyüşlərdəki qəhrəmanlığını nəsillərə örnək olduğunu qeyd edərək məhz Aprel döyüşləri zamanı rəşadətli əsgərlərimizin vətənpərvərlik ruhu sayəsində yağı düşmənin həm fiziki, həm də mənəvi cəhətdən sarsıdıb məhvə məhkum edildiyini söyləyib. Aprel döyüşlərinin torpaqlarımızın azad olunması yolunda işğalçı düşmənə qarşı aparılan mübarizə tarixinin parlaq səhifəsi olduğunu və bu səhifəni qəhrəman oğullarımızın öz qanları və canları ilə yazdıqlarını, Rusif Ağayevin də belə igidlərdən olduğunu xüsusi vurğulayan T.Qaraşov şəhidin valideynlərinə Vətənini sevən, onun yolunda canından keçən qəhrəman övlad yetişdirdiklərinə görə təşəkkür edib.

Şəhidin atası İbrahim Ağayev və digər çıxış edənlər dövlət başçısının uğurla həyata keçirdiyi inkişaf kursunu, xalqın rifahının yaxşılaşdırılması ilə bağlı gördüyü işləri ürəkdən bəyəndiklərini dilə gətiriblər. Bütün çıxışlarda torpaqlarımızın işğaldan azad olunması yolunda canlarından keçən şəhidlərin Vətən qarşısındakı xidmətlərinin yüksək dəyərləndirilməsinə və xatirələrinin əbədiləşdirilməsi ilə bağlı davamlı işlərin görülməsinə görə minnətdarlıq səsləndirilib.

Sonda mərasimdə məktəblilərin ifasında şəhidlərə həsr olunmuş ədəbi-bədii kompozisiya ifa olunub, Rusif Ağayevin qəsəbə qəbiristanlığındakı məzarı ziyarət edilib.

*Ağaddin BABAYEV,*
*"Lənkəran" qəzetinin əməkdaşı*

# Şəhid ailələrinin qayğıları qarşılanır





44 günlük Vətən müharibəsi zamanı qəhrəmancasına şəhid olmuş Sahib Həsənovun atası Azər Həsənov ürəyin arxa divarının kəskin miokard infarktı diaqnozu ilə Gəncə Şəhər Kardioloji Xəstəxanaya yerləşdirilmişdir.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov xəstəxanada şəhidin atasını ziyarət etmiş, onun vəziyyəti ilə maraqlanmışdır. Məlumat verilmişdir ki, Azər Həsənova ilkin tibbi yardım göstərildikdən sonra o, bütün müalicə və müayinələrdən keçirilmişdir. Hazırda xəstənin səhhəti qənaətbəxşdir.

Qeyd edək ki, Sahib Həsənov 7 oktyabr 2020-ci ildə Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Prezident İlham Əliyevin sərəncamları ilə o, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Sözün işığında yaşanan ömür

**O, könlünü sözə verdi. Söz də onu - publisist, yazıçı, nasir, dramaturq, tərcüməçi, ssenarist, milli mətbuat tarixi üzrə tədqiqatçı, Əməkdar jurnalist Əşrəf Hacıyevə unudulmazlıq bağışladı.**

1931-ci il dekabrın 11-də Bakıda dünyaya gəlib. O zaman valideynləri bu şəhərdə təhsil alırdılar. Uşaqlığı Qəbələ rayonunun Hacallı kəndində keçib. Qəbələ şəhər orta məktəbində oxuyub. O, öyrənmək həvəsi, istedadı, bacarığı ilə seçilən, gələcəyinə ümid bəslənən şagirdlərdən olub. Bütün fənləri yaxşı oxusa da, ədəbiyyata izah edə bilmədiyi əsrarəngiz hisslərlə bağlı idi. Elə orta məktəb illərində bədii ədəbiyyatın cazibəsinə düşən Əşrəf Hacıyev hisslərini qələmə almağa çalışıb. 1949-cu ildə Qəbələ şəhər orta məktəbini əla qiymətlərlə başa vurub. Yazıçı olmaq istəyi ilə sənədlərini Azərbaycan Dövlət Universiteti (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı şöbəsinə verib. İmtahan komissiyasının üzvləri onun sərbəst mövzuda yazdığı inşanı çox bəyəniblər. Onlar Əşrəf Hacıyevin xüsusi yazı istedadını nəzərə alıb özündən soruşmadan onu həmin fakültənin nəzdindəki Jurnalistika şöbəsinə qəbul ediblər. 1949-1954-cü illərdə universitetdə təhsil alıb. O illərdən bu peşəni çox sevib və ömürlük jurnalistikaya bağlanıb. Azərbaycan mətbuatında və ədəbiyyatında özünəməxsus yeri və imzası olması üçün hər zaman böyük həvəslə oxuyub-öyrənib, yorulmadan çalışıb və istedadının, zəhmətinin gücü ilə buna nail olub.

Çox fəal olan Əşrəf Hacıyev hələ tələbəlik illərində fakültə komsomol təşkilatının katibi, işlədiyi institutda, redaksiyalarda ilk partiya təşkilatının katibi seçilib. Azərbaycan jurnalistlərinin qurultaylarının nümayəndəsi olub, Azərbaycan nümayəndə heyətlərinin tərkibində ümumittifaq səviyyəli elmi konfranslarda və dövlət tədbirlərində iştirak edib.



Tələbəlik illərində mətbuatda yazıları dərc edilib. 1950-ci illərin ortalarından başlayan yaradıcılıq yolundan qırx beş il, yəni ömrünün sonunadək heç vaxt uzaqlaşmayıb. Əsərləri "Ə.Hacıyev" və ya "Əşrəf Hacıyev" imzaları ilə işıq üzü görüb.

Ali təhsilini başa vuran kimi, 1954-cü ilin avqustundan Azərbaycan Komsomolu Mərkəzi Komitəsində (ALKGİ MK) Təbliğat və təşviqat şöbəsinin mətbuat üzrə təlimatçı vəzifəsinə işə qəbul olunub. Orada çalışdığı 1954-1956-cı illərdə respublikanın müxtəlif mətbu orqanları ilə əməkdaşlığa başlayıb. İmzası müntəzəm olaraq qəzet səhifələrində görünüb.

Qəlbinin səsini dinləyib. Yaradıcılıqla daha fəal məşğul olmaq istəyi ilə 1956-cı ilin dekabrında "Azərbaycan gəncləri" qəzetinin redaksiyasına gəlib. O, 1956-1969-cu illərdə həmin qəzetin Təbliğat və təşviqat şöbəsinin müdiri işləyib.

Əşrəf Hacıyev Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunda baş elmi işçi işlədiyi 1969-1977-ci illərdə də mətbuatdan uzaqlaşmayıb. 1977-ci ildə "Kommunist" qəzetinin (1991-ci ildən "Xalq qəzeti") dəvəti ilə yenidən jurnalist kimi çalışıb. 1977-1997-ci illərdə, yəni iyirmi il bu qəzetdə fəaliyyət göstərib. 1990-1997-ci illərdə "Xalq qəzeti"nin Mingəçevir şəhəri mərkəz olmaqla, Yevlax, Ağdaş, Göyçay, Qəbələ, Ucar, Zərdab rayonları üzrə bölgə müxbiri işləyib. Ömrünün son çağlarında - 1997-2001-ci illərdə "Respublika" qəzetində şöbə müdiri, ədəbi redaktor vəzifələrində işləyib.

Əşrəf Hacıyev insana, təbiətə, vətənə sevgi ilə qələmə alınan bir sıra nəsr əsərlərinin (povest, hekayə və novellaları, əfsanə və nağılları) müəllifidir. Onun "İtkin atanın oğlu", "Onun qanı ürəyimdədir" povestləri, "Eynəkli kişi", "Son görüş", "Daş güzgü" hekayələr məcmuələri, "Gözəllər zinəti", "Alma bağı", "Məsləhət", "Varislər", "Məhəbbət novellası" və digər pyesləri, "Məhəbbət könül çırağıdır", "Günəş nəslinə məktublar", "Milyonlar belə yaranır", "Şirvanın şöhrəti" və başqa publisistik kitabları oxucular tərəfindən maraqla qarşılanıb.

Əşrəf Hacıyev "Azərbaycanfilm" kinostudiyasının sifarişi ilə iki sənədli filmin - "Ömürgün sevdası" adlı qısametrajlı və "Oktyabrın şəfəqləndirdiyi yol" tammetrajlı sənədli filmlərinin ssenarisini yazıb.

O, tərcüməçi kimi də tanınıb. Əşrəf Hacıyev bədii, elmi, siyasi ədəbiyyatın tərcüməsi ilə məşğul olub. Qabriel Jildas-Andriyevski, A.P.Çexov, Edmondo de Amiçis, O. Henri, Vasili Bakov və başqalarının əsərlərini dilimizə çevirib.

Əşrəf Hacıyev Partiya Tarixi İnstitutunda işlədiyi illərdə XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan mətbuatının tarixini, xüsusilə də partiya və dövlət xadimi, ötən əsrin təlatümlü, ziddiyyətli 1930-cu illərində Azərbaycan SSR MİK-nin sədri olmuş Sultanməcid Əfəndiyevin publisist irsini araşdırıb.

Əşrəf Hacıyev "Azərbaycan gəncləri" və Quba rayonunda çıxan "Şəfəq" qəzetlərinin 50 illiyinə həsr edilən tarixi oçerk-bukletlərin tərtibçi-müəllifidir.

O, 2001-ci il iyulun 5-də vəfat edib. İyirmiyədək kitabın, çoxsaylı məqalə, nəsr və dram əsərlərinin, kinossenarilərin, mətbuat tarixinə dair elmi araşdırmaların müəllifi, rus dilindən bədii, elmi və siyasi əsərlərin tərcüməçisi olan Əşrəf Hacıyevin qoyub getdiyi zəngin irs onun adını Azərbaycan mətbuatında və ədəbiyyatında yaşadır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Təbəssümü üzündə dondu

Elmin Quluzadə 1998-ci il noyabrın 1-də Tərtər rayonunun Kəngərli kəndində anadan olub. Ailədə üç qardaş idilər.

Qarabağ müharibəsi iştirakçısı olan Şəmsi kişi oğlanları ilə fəxr edirdi. Əmin idi ki, vaxtilə özünün və yoldaşlarının bacara bilmədiklərini Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bu gənclər edəcək və erməni işğalına son qoyulacaq.

Ailənin böyüyü Murad 4 il idi ki, müddətdən artıq hərbi qulluqçu kimi xidmət edirdi. Elmin isə müharibəyə könüllü getmişdi. Şəmsi kişi deyir ki, müharibədə müvəqqəti atəşkəs olduğu günlərdə kiçik oğlu ilə Elminin yanına getmişdi: "Ağdam istiqamətindəydi. Əhval-ruhiyyəsi də çox yaxşıydı. Zarafat elədim. Dedim, gəlsənə mən qalıb sənin yerinə döyüşüm, sən isə qayıt evimizə. Bu sözləri zarafatca desəm də, o, ürəyimdəki nigarançılığı hiss etdi. Axı Murad da döyüşdəydi. Dedi, ata, sən nə danışırsan, biz sənə söz vermişdik ki, bu torpaqların alınmasında iştirak edəcəyik. Hər dəfə kəndlərimizi geri qaytardıqca, səni gözlərim önünə gətirir və sevinirəm ki, bundan sonra sən də rahat yaşayacaqsan. Oğlum haqlı idi. 30 ilə yaxın bir müddətdə mən televizora baxıb rayonlarımızın işğalı tarixlərini, bu yerlərin dağıdılması haqqında xəbərləri eşidəndə, sanki özümü günahkar hesab edirdim. İndi başımız ucadır. Bu ucalığı şəhidlərimiz öz qanları ilə bizə bəxş etdilər".

Elmin oktyabrın 16-da Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına həlak oldu. Həmin vaxt bizim hərbçilər mühüm strateji yüksəkliyi düşməndən geri qaytarmışdılar. Komandiri deyirdi ki, uşaqlar hamısı çox sevincliydi. Elminin üzündə isə həm də qalib əsgərin təbəssümü vardı. Heyif ki, mina qəlpəsi bu təbəssümü əbədi dondurdu.

Elmin Quluzadə oktyabrın 17-də Kəngərli kənd qəbiristanlığında dəfn olundu. Deyilənə görə, sevdiyi qız vardı. Anasına demişdi ki, hazırlaş, müharibədən sonra elçi gedəcəksən.

Elmin Quluzadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə hazırda xidmətini davam etdirən qardaşı Murad da medallara layiq görülüb.

*Svetlana BAĞIROVA,*
*"Yeni Tərtər" qəzetinin redaktoru*

# Revanşistlərin ümidləri də puç olur

## Hakimiyyətdəki siyasi dairələr hesab edirlər ki, mövcud vəziyyət Ermənistanın xilası üçün bəlkə də son şansdır

Ermənistanda ictimai-siyasi müstəvidə baş verən son proseslər getdikcə daha çox diqqət cəlb etməkdədir. Xüsusən də bu, ölkə parlamentində keçirilən iclasda hakimiyyət təmsilçiləri ilə keçmiş hərbi xunta üzvlərinin bir-birinə qarşı ittihamdolu açıqlamaları bəzi həqiqətləri üzə çıxarır. Tərəflərin bir-birilərinə qarşı kompromat xarakterli hücumlarının artması, gözdənsalma kampaniyasını genişləndirmələri vəziyyəti daha kritik həddə çatdırır.

Bu günlərdə "Ermənistan" fraksiyasının rəhbəri Seyran Ohanyan Ermənistan parlamentinin tribunasına terrorçuların qondarma əski parçasını taxaraq iclası tərk edib. Paşinyanın komandasının deputatları isə etiraz edərək əski parçasını tribunadan götürüblər. "Vətəndaş Müqaviləsi" fraksiyasının deputatı Vaaqn Aleksanyan çıxış edərək Seyran Ohanyanı və Ermənistanın digər keçmiş müdafiə nazirlərini "axmaq" adlandırıb: "Onlar 30 il bu bayrağı lazımi yerlərdə qoymaq, Ermənistan bayrağının möhkəmliyini təmin etmək əvəzinə soyğunçuluqla məşğul olublar. Bura populist çıxışlar etməyə gəlirlər, guya, qondarma "respublikanı", Ermənistanı qoruyurlar və onların taleyindən narahatdırlar. Amma, əslində, 30 ildə eyni şeyi qışqıraraq öz ciblərini doldurublar. Bu yaxınlarda cinayət işi açılmış sıravi gömrük işçisinin İrəvanın mərkəzində milyonlarla dollarlıq mülkü, 20 mənzili, milyonlarla dollarlıq bir neçə avtomobili aşkar olundu".

Bu arada Ermənistan parlamentinin üzvləri - Robert Koçaryanın lideri olduğu müxalif "Ermənistan" blokunun deputatları Qarabağa buraxılmayıb. Seyran Ohanyanın rəhbərlik etdiyi deputat qrupu sülhməramlılar tərəfindən Laçının girişində saxlanılıb. Buna görə də "Ermənistan" bloku Paşinyanı ittiham edib.

Göründüyü kimi, Brüssel görüşü və sonrasında müxalifətin Qarabağ kartından hakimiyyətə qarşı istifadə etməsi daha intensiv hal alıb. Ermənistanın müxtəlif yerlərində qondarma əski parçasını asmaq kampaniyası da bu prosesin tərkib hissəsidir. Bu qrupun Azərbaycan ərazisinə buraxılmaması onların Qarabağ kartından istifadə imkanlarını, xüsusilə Xankəndidəki ermənilərlə birləşərək təxribat fəaliyyətini, eləcə də Araik Arutyunyanın Paşinyana qarşı "alternativ" əldə etmək şəraitini məhdudlaşdırır.

Beləliklə, Ermənistan rəsmiləri sülh müqaviləsinin imzalanmasına razı olduqlarını bildirdikləri vaxtda ölkədəki revanşist qüvvələr prosesin baş tutmaması üçün məkrli niyyətlərini gizlətmədən aşkarda nümayiş etdirirlər. Buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olduqlarını da çox yaxşı başa düşürlər.

Ancaq etiraf edək ki, son vaxtlar Azərbaycana qarşı bəzi təbliğat nümunələrinin yayılması sübut edir ki, regionda sülhün yaranmasını istəməyən xarici qüvvələr var. Deputatlar pozuculuq hərəkətləri ilə Ermənistana etimadın yaranmasına da mane olurlar. Həmin şəxslər təmsil olunduqları cəmiyyətin əməkdaşlıq və sülh tərəfdarı olan hissəsinin istəyinə qarşı çıxırlar.

Bütün bunlara baxmayaraq, belə mübahisələrin Ermənistan parlamentində hələ müəyyən müddət davam etməsi gözlənilir. Lakin reallıq göz önündədir. Ermənistanın xarici asılılıqdan qurtulmasının və beynəlxalq münasibətlərin müstəqil iştirakçısına çevrilməsinin yeganə yolu rəsmi Bakının sülh müqaviləsi təklifini qəbul etməsindən, Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmasından keçir.

Müharibədəki məğlubiyyətdən sonra baş nazir Paşinyanı təslimçilikdə ittiham edənlər çıxış yolu kimi onu devirməkdə görsələr də, məsuliyyətini də üzərilərinə götürmək istəmirlər. Özünü müxalif kimi təqdim edən Koçaryan-Sarkisyan koalisiyası isə hələ də konseptual strategiya ortaya qoya bilməyib. Regionda baş verən son hadisələr fonunda siyasi dairələr də yaxşı dərk edirlər ki, mövcud vəziyyət Ermənistanın xilası üçün bəlkə də son şansdır və bunu maksimum şəkildə dəyərləndirmək lazımdır.

Ermənistan ictimaiyyəti Paşinyanın devrilməsindən daha çox Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi, "status-kvo"nu dəyişməsi ilə bölgədə yaratdığı reallıqdan səmərəli istifadəyə üstünlük verilməsinin tərəfdarıdır. Sadə ermənilər Qarabağ kartından istifadə edərək, 30 ilə yaxın müddətdə erməni xalqını səfalət içində saxlayan rejimin yox, məğlub baş nazirin hakimiyyətdə qalmasını istəyirlər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# COVID-19-un yoluxuculuq riski hələ də qalır

Əksər ölkələrdə, eyni zamanda Azərbaycanda COVID-19 pandemiyası səngisə də, bəzi ölkələr, xüsusən Çin yenidən həyəcan təbili çalır. Çində SARS-CoV-2 virusunun "Omikron" ştamının alt variantları olan BA.1, BA.2 və BA.1.1 növlərinin sürətlə yayıldığı, fəsadlara yol açdığı, həmçinin xəstəlik nəticəsində iqtisadiyyata ziyan dəydiyi qeyd olunur.

Azərbaycanda isə son günlər koronavirusa yoluxma sayının azalması, xəstəliklə bağlı ölüm halının qeydə alınmaması epidemioloji durumun yaxşı olduğundan xəbər verir.

## Koronavirusdan ölüm halları azalsa da, pandemiya davam edir

Bəzi ölkələrin səhiyyə qurumları ilin sonuna kimi pandemiyanın sona çatacağını güman etsələr də, ÜST virusa yoluxma hallarının payıza doğru yenidən arta bilmə ehtimalının olduğunu qeyd edir. Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesus vəziyyətlə bağlı bildirib ki, pandemiyanın bitməsindən danışmaq tezdir. O, bunu bir çox ölkələrdə vaksinasiya göstəricisinin aşağı olması ilə əlaqələndirib. Baş direktorun sözlərinə görə, dünyada koronavirusdan ölüm hallarının azalması tendensiyası müşahidə olunsa da, pandemiya hələ davam edir.

Təşkilat rəhbəri qeyd edib ki, xəstəliyin yoluxuculuq riski hələ yüksək olaraq qalır. Pandemiya ilə bağlı məhdudiyyətlərin yumşaldılması infeksiyaların yayılmasına imkan verir.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı 2022-ci ilin iyuluna qədər hər bir ölkə əhalisinin 70 faizinin peyvənd olunmasını hədəf kimi müəyyənləşdirib. Strategiya və tədbirlərin kompleks şəkildə tətbiqi nəticəsində bu il pandemiyanın kəskin mərhələsinə son qoymaq mümkün olduğu bildirilib.




İki ildən çoxdur davam edən pandemiya zamanı dünyada həm infeksiyaya yoluxma sayının azaldığı, həm də yoluxma sayının antirekord həddə çatdığı günlər olub. Xəstəliyə yoluxma halları azalanda belə, səhiyyə işçiləri daim insanları ehtiyatlı olmağa, gigiyena qaydalarına əməl etməyə, maska taxmağa, məsafə saxlamağa, ehtiyac olmadığı halda sıx yerlərdən uzaq durmağa çağırıblar. Bu illər ərzində COVID-19-un öyrənilməsi istiqamətində mütəxəssislər tərəfindən tədqiqatlar aparılıb. Alimlər koronavirusun dayanmadan mutasiyaya uğrayacağını, zamanla insan orqanizmində bu infeksiyaya qarşı immunitetin yaranması ilə xəstəliyin digər respirator virus infeksiyaları kimi keçiriləcəyini də qeyd edirdilər. Son variantlar, əslində, bəzi araşdırmaların doğruluğunu göstərdi. "Omikron"a yoluxanlar xəstəliyi artıq yüngül keçirir, bu, həm koronavirusun yeni ştamlarının simptomları, həm də insanların vaksinasiya və xəstəliyə yoluxma nəticəsində əldə etdiyi immunitetlə bağlıdır. Bununla belə, bu ştamın və alt variantlarının yoluxduruculuq qabiliyyətinin yüksək olduğu özünü göstərir.

## Yenə də müdafiədə ən effektiv yol vaksinasiyadır

Pandemiya ilə mübarizədə ən effektiv yol vaksinasiya hesab olunur. COVID-19-a qarşı peyvənd hazırlanıb istehsal olunduqdan sonra dünya əhalisi vaksinasiya prosesinə cəlb olundu. İlk mərhələdə risk qrupları vaksinasiyadan keçsə də, zamanla 18 yaşdan yuxarı bütün əhali qrupu üçün peyvəndlənmə tövsiyə olundu. Azərbaycan da vaksinasiyaya ilk başlayan, bu istiqamətdə vaxtında təcili tədbirlər görən ölkələrdən biridir. İndiki dövrə qədər xəstəliklə mübarizədə yeganə çıxış yolu vaksinasiya sayəsində dünya əhalisində yaranan kütləvi immunitet hesab olunur.

Mütəxəssislər pandemiyanın əvvəlində COVID-19-la bağlı müxtəlif araşdırmalar apararaq virusu öyrənməyə başladılar. Koronavirus, əsasən, ağciyərlərə təsir göstərsə də, infeksiyanın digər orqanlarda da fəsad yaratdığı zamanla ortaya çıxdı. Həkimlər xəstəliyi keçirib sağalan insanlarda virusun qalıcı fəsadlar yaratdığını qeyd edirlər.

Tədqiqatlara görə, gözlənilmədən dünyanı bürüyən pandemiya insanlarda ən çox stres və depresiyaya səbəb olub. Ümumiyyətlə, əksər ölkələrin elmi müəssisə və təşkilatları tərəfindən aparılan araşdırmalarda dünya əhalisində psixoloji problemlər, depresiya, gərginlik, stresin artdığı, əsəb pozğunluğunun ortaya çıxdığı qeyd olunub. Təbii ki, bu göstəricilər pandemiyanın əvvəlində daha yüksək idi, zamanla insanlar xəstəliyə alışdığı üçün bu hallar da azalır.

COVID-19-a yoluxma saylarının azalması, ölümün qeydə alınmaması insanları arxayınlaşdırmamalıdır. Karantin rejimi nəticəsində keçdiyimiz çətin 2 ili xatırlayıb ehtiyatlı olmalı, sağlamlığımızın qeydinə qalmalıyıq. ÜST, eyni zamanda mütəxəssislər virusun bizə hansı sürprizlər hazırladığını proqnozlaşdırmağın çətin olduğunu bildirirlər. Tək yol vaksinasiya nəticəsində xəstəliyə qarşı immunitet yaratmaqdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# AZAL Bakı ilə Berlin arasında uçuşları bərpa edir

**"Azərbaycan Hava Yolları" aviaşirkəti mayın 29-dan etibarən Bakı ilə Berlin arasında uçuşların yerinə yetirilməsini bərpa edir.**




"Azərbaycan Hava Yolları"nın Mətbuat xidmətindən verilən məlumata görə, Bakı-Berlin-Bakı marşrutu üzrə xüsusi reyslər həftədə 2 dəfə - çərşənbə axşamı və bazar günləri aviaşirkət tərəfindən həyata keçiriləcək.

Aviabiletləri aviaşirkətin rəsmi **www.azal.az** saytında, həmçinin aviadaşıyıcının akkreditə olunmuş agentliklərində rəsmiləşdirmək mümkün olacaq.

Sözügedən reyslərə yalnız qeyd olunan daşınma şərtlərinə cavab verən və COVID-19 pandemiyası ilə əlaqədar tətbiq edilən məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunacaq.

Almaniyaya səfər etməyi planlaşdıran bütün sərnişinlərə uçuşdan əvvəl bu ölkə ərazisinə giriş zamanı tətbiq olunan qayda və məhdudiyyətlərlə tanış olmaları tövsiyə olunur. Müvafiq məlumat aviaşirkətin saytında dərc olunmuşdur: **https://www.azal.az/az/information/covid-germany**.

Azərbaycana giriş qaydaları haqqında məlumatla burada tanış olmaq mümkündür: **https://www.azal.az/az/information/covid-azerbaijan.**

# Hindistan Asiyada yeni güc mərkəzinə çevrilir

**Bu yaxınlarda əhalinin sayına görə dünya liderliyinə daxil olan Hindistanı bir çoxları Çinin rəqibi kimi qəbul etmir. Lakin Cənubi Asiya ölkəsinin iqtisadiyyatı sürətlə inkişaf edir və keçən il 8,9 faiz artıb. Fond bazarı da geridə qalmır. Belə ki, Hindistan birjaları regionda və bütün dünyada ən böyük birjalar sırasındadır.**



## Qlobal iqtisadiyyatın təxminən 7 faizi Hindistanın payına düşür

Hindistan iqtisadiyyatı tez-tez ABŞ, Avropa İttifaqı və dünyanın digər ən inkişaf etmiş ölkələri üçün əsas rəqib hesab olunan Çinin kölgəsində qalır. Fevralın əvvəlinə olan məlumata görə, Çinin ÜDM-i ABŞ-dan 29 faiz azdır (14,72 trilyon dollara qarşı 20,89 trilyon dollar). Alıcılıq qabiliyyəti paritetinə görə, Pekin 24,27 trilyon dollar nəticə ilə birinci yer tutur. Doğrudur, bir çox iqtisadçılar daha düzgün göstərici kimi adambaşına düşən ÜDM-i hesab edirlər. Burada isə Pekinin aşkar problemləri var - adambaşına 10,4 min dollar. ABŞ-da bu rəqəm 63,4 min dollara, ümumi ÜDM üzrə üçüncü yeri tutan Yaponiyada isə 40,1 min dollara bərabərdir.

Hindistan klassik ÜDM-in həcminə görə 2,66 trilyon dollar nəticə ilə altıncı yerdədir. Bütün qlobal iqtisadiyyatın təxminən 7 faizi onun payına düşür. Alıcılıq qabiliyyəti pariteti üzrə vəziyyət bir az da yaxşıdır - 8,97 trilyon. 1,4 milyard nəfər əhalinin hər birinin payına iqtisadiyyatın ümumi qazancından 1,9 min dollar düşür ki, bununla da Hindistan Beynəlxalq Valyuta Fondunun (BVF) qiymətləndirilməsi üzrə dünyada 124-cü yerdə qərarlaşır. Buna baxmayaraq, mütəxəssislər Hindistan iqtisadiyyatında əhəmiyyətli potensial görürlər. Onların gözləntiləri ilk növbədə bir neçə sektorun sürətli inkişafına əsaslanır.

## Gözləntilər nəyə əsaslanır?

Son illərdə xidmət sahəsi əsasən informasiya texnologiyalarının (İT) sürətli artımı hesabına inkişaf edir. Müasir Hindistan proqramlaşdırma sahəsində dünya liderlərindən biri hesab olunur. Ölkədə mütəmadi olaraq yeni startaplar peyda olur, yerli mütəxəssislər dünyanın ən iri şirkətlərinə dəvət alırlar. Həmin şirkətlər əməkhaqqının aşağı səviyyədə olmasından istifadə edərək Hindistanda nümayəndəliklərini açırlar. 2011-ci ildən İT-nin xidmət sahəsində payı 45 faizdən 49 faizə yüksəlib. Kommersiya aviasiyası da sürətlə artır - ölkə dünyada aviadaşımaları (320 milyard dollar həcmində) və reteyl (pərakəndə satış) üzrə üçüncü yeri tutur.

Hindistan sənayesində neft emalı və kimya sənayesi (birlikdə bütün ixrac gəlirlərinin təxminən 34 faizini təşkil edir), eləcə də ceneriklərin (orijinal dərmanların daha ucuz analoqu) istehsalında ixtisaslaşan əczaçılıq fərqlənir. Energetika, neft-kimya və neft emalı, tekstil, reteyl və kommunikasiyaları özündə birləşdirən "Reliance Industries" Korporasiyası milli iqtisadiyyatın lokomotivi hesab olunur. Holdinqin payına bütün Hindistan ixracının 8 faizi düşür.

Yerli ənənələr, xüsusilə toylar mövsümi zərgərlik sənayesini stimullaşdırır və müəssissələr mədənçilərdən qızıl alırlar. İki il bundan əvvəl ölkənin şimalında ehtiyatları 3 min ton həcmində qiymətləndirilən, əvvəllər kəşf edilmiş 620 tonluq ümumi ehtiyat və illik 840 tonluq tələbatı olan mədən aşkar edilib. Mütəxəssislər bunun qızıl mədən sənayesinin inkişafına təkan verə biləcəyini gözləyirlər. İnvestisiya lazımi səviyyədə olarsa, o, bir milyona yaxın insanın məşğul olduğu dağ-mədən sahəsi ilə rəqabət apara bilər. Bəzi iqtisadçılar Hindistanı "yüksəliş ölkəsi" adlandırırlar.

## Ölkə investorlarda böyük maraq doğurur

Bütün bu hallar Hindistan aktivlərinə sərmayə qoymaqda maraqlı olan beynəlxalq investorları cəlb edir. Son beş il ərzində "Standard&Poor's" Beynəlxalq Reytinq Agentliyinin iştirakı ilə tərtib edilən ölkənin "S&P Sensex" əsas indeksi təxminən iki dəfə - 30 mindən təqribən 60 min bəndə qədər artıb.

Hindistan şirkətlərinin səhmlərini və istiqrazlarını, eləcə də ölkənin suveren borcunu almaqdan əvvəl daxili bazarda milli valyuta - rupi əldə olunur, bu da öz növbəsində onun məzənnəsini möhkəmləndirir. Eyni zamanda rupini ən cəlbedici valyuta adlandırmaq çətindir. Son beş il ərzində onun məzənnəsi 13 faiz azalıb: 1 dollar üçün 66-dan 75-ə qədər. Lakin digər inkişaf etməkdə olan ölkələrin fonunda bu kifayət qədər sabit görünür. Müqayisə üçün eyni müddətdə Rusiya rublu dəyərinin 35 faizini itirib.

Hələ 2007-ci ildə Hindistanın fond bazarı inkişaf etməkdə olan ölkələr arasında üçüncü yerə çıxıb - yerli birjalarda satılan şirkətlərin ümumi kapitallaşması trilyon dolları ötüb. 14 il sonra, yəni 2021-ci ildə ölkə bütün dünyada ən böyük beşliyə yaxınlaşaraq Böyük Britaniyadan sonrakı yerdə qərarlaşıb. Doğrudur, hesablama üsulu artıq bir az fərqli olub - əsas yerli birjada işləyən şirkətlərin dəyəri nəzərə alınıb. Keçən il bu göstərici 37 faiz artaraq 3,46 trilyon dollara çatıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


## "Bank Respublika" ASC səhmdarlarının nəzərinə!

**"Bank Respublika" ASC səhmdarlarının növbəti ümumi yığıncağı**
**30 may 2022-ci il tarixdə saat 11:00-da, Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş ofisində keçiriləcək.**

**Gündəlikdəki məsələlər:**

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. 2021-ci il üçün kənar audit yoxlamasının nəticələri haqqında.
4. 2021-ci ilin nəticələrinə görə mənfəətin bölüşdürülməsi haqqında.

***Rəhbərlik***

## "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 1 ədəd "Lada Niva Travel" markalı nəqliyyat vasitəsinin satın alınması üzrə *kotirovka sorğusu elan edir*

İddiaçılar satınalma prosedurunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunu "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatından əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Təkliflər 22 aprel 2022-ci il saat 15:00-a qədər qəbul olunur.

Ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxs Fəxrəddin Orucova müraciət edə bilərlər.

**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi, 125**
**Telefon: (012) 538 92 35**
**e-mail: maliyye.aqrarkredit@mail.ru**

***Tender komissiyası***

## OXUCULARIN NƏZƏRİNƏ! "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti soyuducu konteynerlərin (AM075/2022) satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 aprel 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

Dövlət Avtomobil Nəqliyyat Xidməti tərəfindən AZFEM MMC-yə ayrılmış icazə blankı (№ 0061834) itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərova qardaşı

**ƏLİ ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruca əzizi

**SABİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərova qardaşı

**ƏLİ ƏSGƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvləri komitənin sədri Ziyafət Əsgərova qardaşı

**ƏLİ ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərova qardaşı

**ƏLİ ƏSGƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və komitə üzvləri Məlahət İbrahimqızı, Vüqar Bayramov, Əziz Ələkbərov, Jalə Əliyeva, Rauf Əliyev, Sevinc Hüseynova, Aqil Məmmədov, İlham Məmmədov, Soltan Məmmədov, Səttar Möhbalıyev, Arzu Nağıyev və Ziyad Səmədzadə Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruca əzizi

**SABİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Hadi Rəcəbli, Hüseynbala Mirələmov və Şəmsəddin Hacıyev Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərova qardaşı

**ƏLİ ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərova qardaşı

**ƏLİ ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və Aparat işçiləri Bakı Şəhəri üzrə Təhsil İdarəsinin sədr müavini Hüseyn Əsgərova qardaşı

**ƏLİ ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Abşeron rayon Vəkil Bürosunun kollektivi iş yoldaşları Coşqun İsgəndərova atası

**İBAD KİŞİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının əməkdaşları professor Hüseyn Abbas oğlu Əsgərova qardaşı

**ƏLİ ABBAS OĞLU ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5714
Sifariş 985
Qiyməti 40 qəpik